06_27 IYUl-QARA.qxd 2/13/2025 8:32 PM Page 1

UNİKAL

№06 (2236) 14 fevral 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Azərbaycan Ermənistandan tam təzminat tələb edir:
## İddia sənədi Haaqa Arbitraj Məhkəməsində



Səh.9

## İlham Əliyevdən Qarabağ və Şərqi Zəngəzurla bağlı növbəti mesaj

*Azərbaycan Prezidenti İlham Əliyev "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarına müraciət edib. "Unikal" xəbər verir ki, müraciətdə deyilir: "Hörmətli Forum iştirakçıları, "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarını salamlayır və Dövlət Vergi Xidməti işçilərini peşə bayramı münasibətilə təbrik edirəm. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümüdür. Respublikamızın ali Qanununun müddəaları dövlətimizin müstəqilliyinin əsaslarını və xalqımızın iradəsini əks etdirərək ölkəmizin demokratik və hüquqi dövlət quruculuğu istiqamətində inamla irəliləməsi üçün zəmindir.*

Səh.3

## "Azərbaycan Rusiyadan mehriban qonşuluq münasibətini görmək istəyir"



*Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Avropa İttifaqının "missiyası"nın növbəti dəfə Azərbaycan sərhədində müşahidə aparmasından, Azərbaycanın Ermənistandan tam təzminat tələb etməsindən, Ermənistanın "Sülh kəsişməsi" layihəsinin məqsədindən və Rusiya-Azərbaycan...*

Səh.4

## Azərbaycan və Ermənistan liderlərinin gözlənilən görüşü: Hansı məsələlər müzakirə oluna bilər?



*Sabah Almaniyada 61-ci Münxen Təhlükəsizlik Konfransı öz işinə başlayır. Konfrans çərçivəsində 200-ə yaxın rəsmi tədbir keçiriləcək. Konfrans çərçivəsində qlobal idarəetmə, demokratik davamlılıq, iqlim təhlükəsizliyi və bir çox başqa mövzular daxil olmaqla qlobal təhlükəsizlik çağırışlarına...*

Səh.9

## Rüfət Mahmud sədr təyin edildi



*Rüfət Nahid oğlu Mahmud "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri təyin edilib. "Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Qeyd edək ki, Rüfət Mahmud bu təyinata qədər SOCAR-ın Rusiyadakı törəmə müəssisəsi - "SOCAR Rus" MMC-nin rəhbəri olub.*

Səh.2

06_27 IYUI-QARA.qxd 2/13/2025 5:47 PM Page 2



# "Hikmət və Ziya kimi Cavidan da teatrdan qovulmalıdır" - Xalq artisti



***Xalq artisti Əli Nur aktyor Cavidan Novruzun ünvanına qalmaqallı sözlər deyib.***

Aktyor Cavidanın Akademik Milli Dram Teatrından qovulmasını istədiyini bildirib. Buna səbəb isə Cavidanın "Atamın dəfnində təmtəraqlı çıxışlar olmadı. Əli Nurun ora gəlməsinin bir mənası yox idi" sözləri olub.

Əli Nur "Künc-bucaq" yutub layihəsində bildirib ki, Xalq artisti Ramiz Novruzun dəfn mərasimində özü öndə gedib, bir çox təşəbbüslər irəli sürüb: "Ramiz Novruz vəfat edəndə getdim, gördüm ki, orada məfəniyyət nazirliyinin və digər qurumların nümayəndələri yoxdur. Saat 2 idi dəfn haqda heç nə deyilmirdi. Dedim ki, Ramiz Novruz seçilmiş aktyordur, ona qarşı etinatsızlıq olmaz. Saat 3-dən sonra nazirliyin, icra hakimiyyətin nümayəndəsi gəldi. Tabutu qaldıranda dedim dayanın, orada onun mədəniyyətimizə etdiyi xidmətlərdən danışdım. Məclisi də mən apardım. İndi baxıram ki, Cavidan deyir ki, atamın yasını pozan teatrın yaşlı aktyorları oldu. Başda da Əli Nur, onu öyrədib gətiriblər. Guya, teatrın yaşlı nəsli Ramiz Novruzun ölümünə sevinir".

Əli Nur əlavə edib ki, Cavidanın teatrdan uzaqlaşdırılması üçün Mədəniyyət Nazirliyinə müraciət edəcək: "Cavidan, teatra gələn gənc intriqaçı aktyorlar qovulub. Sən dünənki uşaq oturub teatrı tənqid edirsən? Mənim oğlum gedib şəhid oldu, sən isə gizləndin. Hikmət Rəhimov deyir, bu teatrı saymıram. Onu şişirtmişdilər, baş rol verirdilər. Ziya Ağa, Hikmət Rəhimov, Cavidan virusdur. Mədəniyyət nazirinin qarşısına məsələni qoyacam, o, teatrdan getməlidir. Hazırda əlimdə yeni rolun məşqi var. Bitsin, nazirliyə gedəcəm. Bu viruslar haradan gəlib teatra düşüblər? Sənin kimi iki virus var idi (Hikmət Rəhimov və Ziya Ağa - red.), qovulmalı idi, amma ərizəsi ilə çıxdı. Atan teatrda aktyorların çoxu ilə düşmən idi. Utanmırsan atanın çalışdığı yeri təhqir edirsən? Cavidan Novruz, sən teatrdan getməlisən"(axsam.az).

# "Sənətkarlığın başına dəysin" - Nadir Qafarzada

***"Keçən dəfə bir məsələ ilə bağlı (Əməkdar artist Teymur Əmrahın "Gün ortası verilişində Şəbnəm Tovuzlu, Manaf Ağayev, Damla, Zeynəb Həsəni barəsində xoş sözlər deməsini nəzərdə tutur - red.) fikirlərimi bildirib, tənqid etmişdim.***



Orada bir insanın belə sənəti, musiqi fəaliyyəti, səslərinin tembri haqqında bir söz deməmişdim. Mən başqa şeydən danışırdım. İnsanlar mənim fikirlərimi düzünə yox, əyri şəkildə qəbul edirlər. Bir daha deyirəm ki, orada mən heç kimin sənətinə xələl gətirəcək bir söz deməmişəm".

Bu sözləri müğənni Nadir Qafarzadə qonaq olduğu "Tarixin bir günü" verilişində deyib. Sənətçi bir müddət əvvəl Əməkdar artist Teymur Əmrahla bağlı instaqramn səhifəsində yayımladığı tənqidi videoya bu fikirlə aydınlıq gətirib: "Mən onların "mövqe"sindən danışmışam. İstər kişi, istərsə də qadın - sözün bir olmalıdır. Burada nə demisənsə, gedib başqa yerdə də həmin sözü olduğu kimi deməlisən. Burada başqa digər yerdə başqa söz deyirsənsə, deməli, sən mövqesizsən. Sənin sənətkarlığın da başına dəysin". (olay)



# Elnarə Abdullayevanın adından dələduzluq

***Əməkdar artist Elnarə Abdullayevanın adından dələduzluq edilib.***

Axşam.az xəbər verir ki, bu haqda müğənni özü məlumat yayıb. O bildirib ki, tanımadığı şəxs dostlarına zəng edərək, onun adından pul istəyir: "Son zamanlar dələduzluq halları ilə rastlaşdığımız hamıya məlumdur. Bəzi dələduzlar ətrafımda olan dost, tanışlara zəng edib adımdan pul istəyir. Bu tip məlumatlara qətiyyən inanmayın və pul göndərməyin. Şikayət edilib və adiyyatı üzrə iş nəzarətə götürülüb".

Qeyd edək ki, Əməkdar artistlər Sənubər İsgəndərli, Fərqanə Qasımova, rəqqasələr Rəna Ağamuradova (Renka), Fatimə Fətəliyeva, aparıcılar Mətanət Əliverdiyeva, İlkin Həsəni, Tarix Əliyev (Tolik), müğənni Kamilə Nəbiyeva, keçmiş "Dəyirman" qrupunun solisti ABD Malik, aktrisa Pərvin Abıyevanın da başına bənzər hadisə gəlib.

# "İlk gündən qısa geyinmədim" - Mətanət Əsədova



***"Mən səhnəyə milli üslubda gəlmişəm. Muğam, tar-kamanla, sonra bəstəkar əsərlərinə, estrada janrına, türk mahnılarına müraciət etmişəm. İlk gündən qısa geyinmədim".***

Bu sözləri ARB TV-də yayımlanan "Pərvizə görə" verilişində müğənni Mətanət Əsədova söyləyib.

O, qısa geyinməməsinin səbəbini açıqlayıb: "Tək özümə məxsus olan gündə hər cür geyinirəm. Efirdə geyinmirəm, utanıram. Məni xalq da elə qəbul etməyəcək. Mənim bədən quruluşum buna yola verir, əyri-əskiyim yoxdur. Adi həyatda öz bədən qurluşuma, çəkimə uyğun hər dəbə müraciət edirəm. Kompleksim yoxdur. Məni, Mətanət Əsədovanı sevən onu istəməyəcək. Özümü orada görmürəm. Olmazın olmazı var. O qədər özümə qarşı sərhədlər qoymuşam. Bir kişi ki, qadına sərhədlər qoyur. O elə-belədir. Mənə "niyə bunu belə etdin, elə etdin" deyən yoxdur, ancaq özüm deyirəm".

# Aytac Vidadiqızı həmkarını "yıxıb-sürüdü"

***Müğənni Aytac Vidadiqızı sərt sözləri ilə diqqət çəkib.***

Sosial şəbəkə hesabından videoaçıqlama verən sənətçi həmkarı Sabir Əhmədovun bostanını daş-qalaq edib.

Musiqiyə necə gəldiyini və nəslinin sənətə necə yaxın olmaöını həmin şəxsə xatırladan Vidadıqızı sözügedən müğənnini erməni mahnısı oxumaqla tanınmaqda və Rusiyada apardığı toylara erməni musiqiçilərini dəvət etməkdə günahlandırıb.





## Anar: “Rəsul Rzanın ev-muzeyinin təmirinə laqeyd yanaşılır”

***“Rəsul Rzanın ev-muzeyində hazırda təmir işləri gedir”. “Unikal” xəbər verir ki, bunu APA-ya açıqlamasında Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Xalq yazıçısı Anar deyib.***

O bildirib ki, təmir işləri ailəsinin hesabına həyata keçirilir: “Bir də mənim deputat pensiyam var, onun hesabına atamın ev-muzeyini təmir etdirirəm”.

Xalq yazıçısı Rəsul Rzanın ev-muzeyi yaradılması məsələsinə laqeyd yanaşılmasından şikayətlənib: “Mən bu məsələlərə qarışmaq istəmirəm, danışacam sonra hərə bir yerdən danışacaq. Ona görə də heç bir şey demək istəmirəm. Özü də bu laqeydlik təkcə Rəsul Rzanın ev-muzeyi ilə bağlı deyil. Cəfər Cabbarlının da ev-muzeyi hazırda yox kimidir, halbuki bir neçə il əvvəl yubileyi idi”.

AYB sədri onu da vurğulayıb ki, “Dədə Qorqud” dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi prosesi də yarımçıq qalıb.

“Mən artıq 10 ilə yaxındır ssenarini yazıb təqdim etmişəm, qəbul olunub, lakin filmi çəkmək fikirləri yoxdur”, - Anar əlavə edib.

Qeyd edək ki, Prezident İlham Əliyev 2013-cü ildə “Dədə Qorqud” dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi, 2022-ci ildə isə Rəsul Rzanın ev-muzeyinin yaradılması haqqında Sərəncam imzalayıb.

## “Sputnik-Azərbaycan” və “BBC News Azərbaycanca” bağlanır?

***“Azərbaycan mövcud uyğunsuzluğu aradan qaldırmaq üçün xarici KİV-lərin ölkəmizdəki nümayəndəlik və filiallarının faktiki fəaliyyətinə müəyyən düzəlişlər etmək qərarına gəlib”.***




”Unikal” xəbər verir ki, bu barədə Caliber.Az məlumat yayıb. Bildirilib ki, bu düzəlişlər əsasən “Rossiya seqodnya” beynəlxalq informasiya agentliyinin ölkədə filialı kimi fəaliyyət göstərən “Sputnik-Azərbaycan” nəşrinə, eləcə də “BBC”yə (“BBC News Azərbaycanca”) təsir edəcək.

Belə ki, Azərbaycan və Rusiyanın dövlət xəbər agentliklərinin Rusiya və Azərbaycanda təmsilçiliyində mövcud uyğunsuzluğu aradan qaldırmaq üçün müvafiq olaraq, AZƏRTAC-ın Rusiyadakı müxbirləri qədər “Rossiya seqodnya”nın müxbirləri də ölkəmizdə işləyəcək.

Qeyd edək ki, “Rossiya seqodnya”nın Bakı bölməsinin işinə 40-a yaxın şəxs cəlb olunub. Filialın özünün isə ləğvi gözlənilir - “Rossiya seqodnya” Azərbaycanda işini bir müxbirlə davam etdirəcək və onun fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə və Rusiya Federasiyası və Azərbaycan Respublikası hökumətləri arasında KİV müxbirlərinin statusu haqqında 9 yanvar 2001-ci il tarixli sazişə uyğun olaraq tənzimlənəcək.

# Monopolistlərin növbəti soyğunçuluğu

## Azərbaycanda təmizlik vasitələrinin qiymətindəki ağlasığmaz bahalaşmanın pərdəarxası - Sensasiyalı detallar!

***Statistika göstərir ki, gigiyenik məhsulların qiyməti hər il orta hesabla 10-15 faiz artır. Gigiyenik salfetlər, diş məcunu, sabun və yuyucu tozları qiyməti artan məsullar kateqoriyasındadır. Bu məhsullar gündəlik həyatımızın hissəsi olduğundan qiymət artımı da narahatlıq yaradır. Bəs görəsən bu bahalaşmaya səbəb nədir?***

İqtisadçı Xalid Kərimli bahalaşmanı idxalla o cümlədən benzin və dizelin bahalaşması ilə əlaqələndirib. O, yerli telekanallardan birinə bu yaxınlardakı açıqlamasında bildirib: “Azərbaycanda gigiyena məhsulları bazarı idxaldan asılıdır. Yerli istehsal yoxdur. Olan istehsal isə sadəcə qablaşdırma ilə məşğuldur. İdxal məhsullarının qiyməti bahalaşdıqca qiymət artımı da qaçılmaz olur. Benzin və dizelin də bahalaşması bütün iqtisadiyyatda qiymətlərə təsir edir. Daşıma xərcləri artır. Bu da qiymət artımına səbəb olur”.

Ekspert bildirib ki, alıcılar bu cür məhsulları xarici ölkələrdən də sifariş edə bilərlər.




### Birdən-birə 1-2 manat bahalaşma!

Lakin “Unikal”ın araşdırması gigiyenik məhsulların qiymətindəki qarşısıalınmaz və ağlasığmaz bahalaşmanın başqa səbəblərini də ortaya çıxarıb. Məlum olub ki, gigiyenik vasitələrin qiymətindəki artım mütəmadi xarakter alıb. Məsələn, bir neçə ay öncə 6-7 manat olan bu cür vasitələr indi 10 manatdan yuxarı satılır. Bir vaxtlar 3-4 manata satılan antiperesperantların qiyməti indi minimum 8-9 manatdan başlayır. Üstəlik, artıq həmin məhsulların qiymətindəki bahalaşma ərzaq məhsullarının qiymətindəki artım sürətini belə vurub keçib.

“Şəxsi gigiyena məhsulları arasında daha çox sintetik yuyucu vasitələrin, sabun və diş pastalarının, qabyuyan mayelərin, antiperspirantların qiymətində artım qeydə alınır. Özü də ərzaq məhsullarının qiymətində bahalaşma hər ay 30-40, yaxud 60-70 qəpiklə müşahidə olunursa, təmizlik vasitələrində bəzən 1-2 manat birdən qiymət artımı qeydə alınır. İş o yerə çatıb ki, 2-3 il əvvələdək ən çox satılan şəxsi gigiyena məhsullarının bir çoxuna indi müştərilər gözlərinin ucu ilə də baxmırlar. Səbəb onların indiki qiymətləri ilə istehlakçıların cibi arasında uçurumun az qala aybaay dərinləşməsidir” - bunu qəzetimizin əməkdaşı ilə söhbətində paytaxtdakı iri marketlərdən birinin əməkdaşı deyib.

### İşbazların fürsətcilliyi!

Bir müddət öncə iqtisadçı Kamran Məmmədli ”Bakı-Xəbər”ə şərhində bildirib ki, Azərbaycana qeyri-ərzaq məhsulları, xüsusən də məişət kimyası və şəxsi gigiyena vasitələri əsasən xaricdən gətirilir: ”Bu sahədə Azərbaycanın daxili istehsalı, demək olar ki, yox səviyyəsindədir. Xarici bazarda qeyri-ərzaq məhsulları, xüsusən də məişət kimyası və şəxsi gigiyena vasitələrinin qiyməti kəskin şəkildə artıb. Ölkəyə bu məhsullar baha qiymətə gətirildiyi üçün marketlərdə də baha satılır. Bu məsələnin həll olunması üçün yerli istehsalı artırmaq lazımdır. Həmçinin, bu işlə məşğul olanlara müəyyən güzəştlər tətbiq edilməlidir.Məsələn, vergi və gömrük güzəştlərini tətbiq etmək və bu yolla da qiymətləri tənzimləmək mümkündür. Bu məsələ hökumətin verdiyi qərardan sonra həll oluna bilər”.

Bununla belə, iqtisadçı bəzi işbazların maaş artımlarından istifadə edərək qiyməti artırmağa cəhd etdiklərini də dilə gətirib: ”Ticarət şəbəkələrində də təəssüf ki, inhisarçılıq var. Ona görə də qiymətlərdə müsbət dəyişikliklərə müəyyən dərəcədə nail ola bilmirik və nəticədə proses davam edir. Azərbaycanda istehsal mühitinin yaradılması üçün fundamental islahatların həyata keçirilməsinə ehtiyac var. Ən azından biznes mühiti təkmilləşdirilməlidir. Bunun üçün müvafiq institutlar formalaşdırılmalıdır. Xarici investorların ölkə iqtisadiyyatına investisiya qoymaları üçün normal şərtlər təmin olunmalıdır. Yerli istehsalın xammal idxalından asılılığı aradan qaldırılmalıdır. Bütün bunlara nail olunması üçün iqtisadi və siyasi islahatlar bir-birini tamamlamalı, qlobal inteqrasiya gücləndirilməlidir”.

Elə bir çox mütəxəssislər də gigiyenik vasitələrin qiymətində ağlasığmaz bahalaşma tendensiyasındakı subyektiv amillər sırasında həm işbazların fürsətcilliyini, həm də az qala tamamən xaricdən gətirilən bu məhsulların idxalındakı inhisarçılığı həlledici faktorlar sırasında qiymətləndirirlər.

### Və ümidsiz proqnoz!

İki il öncə sözügedən mövzu ətrafında yerli KİV-in araşdırması zamanı aydınlaşmışdı ki, Azərbaycanda əsas istehlakçı qrupunun cibinə uyğun yuyucu və gigiyenik vasitələrin yerli istehsalını qurmaq demək olar mümkünsüzdür (musavat.com). Belə istehsal yalnız dövlətin subsidiyalaşdırması yolu ilə yaradıla bilər. MDB ölkələrindən Belarus təcrübəsi göstərir ki, əhali sayı az olan ölkələrdə belə istehsal müəssisələri daim dövlətdən maliyyə dəstəyi almalıdır. Azərbaycan hökumətinin isə yaxınmüddətli dövrdə belə istehsalı subsidiyalaşdıracağı real görünmür. Bu halda, hökumətin üzərinə düşən əsas vəzifə idxal məhsullarının qiymətini nəzarətdə saxlamaqla onların əsassız bahalaşmasının qarşısını almaq ola bilər.

Əks təqdirdə inhisarçıların və işbazların fürsətcilliyi, tamahkarlığı ucbatından haqqında danışılan vasitələrə əlçatanlıq getdikcə azalacaq. Üstəlik, bazara keyfiyyətsiz gigiyenik vasitələrin, saxta məhsulların daxil olması qaçılmaza çevriləcək. Çünki istehlakçıların maddi durumu yalnız həmin vasitələri almağa imkan verəcək. Belədə isə ölkənin gigiyenik təhlükəsizliyinə təhdidlərin ortaya çıxması qaçılmazdır.

*Sənan Mirzə*

06_27 IYUI-QARA.qxd 2/13/2025 5:49 PM Page 4



# Azərbaycan və Ermənistan liderlərinin gözlənilən görüşü: Hansı məsələlər müzakirə oluna bilər?

***Sabah Almaniyada 61-ci Münxen Təhlükəsizlik Konfransı öz işinə başlayır. Konfrans çərçivəsində 200-ə yaxın rəsmi tədbir keçiriləcək.***

Konfrans çərçivəsində qlobal idarəetmə, demokratik davamlılıq, iqlim təhlükəsizliyi və bir çox başqa mövzular daxil olmaqla qlobal təhlükəsizlik çağırışlarına diqqət yetiriləcək, beynəlxalq asayişin vəziyyəti, eləcə də regional münaqişələr və böhranlar ətrafında müzakirələr aparılacaq.

Transatlantik tərəfdaşlığın gələcəyi də konfransın ikinci gününün diqqət mərkəzində olacaq. Bazar günü konfrans Avropanın dünyada roluna dair müzakirələrlə yekunlaşacaq.

Qeyd edək ki, konfransda Cənubi Qafqaz ölkələrinin liderlərinin də iştirak edəcəyi gözlənilir. Hər üç ölkənin lideri əvvəlki konfranslarda dəvət edilənlər arasında olub.

Bu il də tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və Gürcüstan Baş naziri İrakli Kobaxidzenin iştirak edəcəyi gözlənilir.



Xatırladaq ki, ötən il keçirilən Münxen Təhlükəsizlik Konfransı zamanı Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə birgə görüşü olub.

Bu il keçiriləcək konfrans zamanı da belə bir görüşün keçirilməsi ehtimal olunur.

Bəs görəsən, İlham Əliyevlə Nikol Paşinyan arasında hansı məsələlər müzakirə edilə bilər?

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, Azərbaycan və Ermənistan liderləri arasında belə bir görüşə çox böyük ehtiyac var:

"Sülh prosesi xeyli irəliləyib. İndi isə kiçik bir təkan lazımdır. Həmçinin, başqa niyyəti olmayan, bu cür, Münxen Təhlükəsizlik Konfransı kimi beynəlxalq təşkilatlardakı vasitəçilər lazımdır ki, prosesi son məqsədinə doğru apar-sınlar.

Zənnimcə, tərəflər arasında kifayət qədər məsafə qət edilib. Sülh müqaviləsinin imzalanması üçün elə də bir şey qalmayıb. Müəyyən məsələlər var idi ki, tərəflər arasında fikir ayrılıqları mövcud idi. Həmin məsələlərin əksəriyyətini aradan qaldırdılar", - deyə o qeyd edib.

Q.Hüseynli əlavə edib ki, Münxen sazişində aparılacaq danışıqların sülh prosesinə sonuncu vacib təkanı verəcəyi qənaətindədir:

"Bununla yanaşı, bəzi məsələlər də müzakirə olunacaq. Bunlardan biri ATƏT-in sülhyaratma missiyasıdır. Azərbaycan da, Ermənistan da bundan imtina etdi.

Bir sıra məsələlər var idi ki, hər iki tərəf beynəlxalq məhkəmələrə şikayət etmişdi. Yəqin ki, sülh müqaviləsi imzalansa, hər iki tərəf həmin şikayətləri geri götürəcək. Bir sözlə, sülh sazişinin imzalanması üçün azacıq məsələlər qalıb, onlar da öz həllini tapmaq üzrədir".

***Murad İbrahimli***

# Azərbaycan Ermənistandan tam təzminat tələb edir: İddia sənədi Haaqa Arbitraj Məhkəməsində

***Azərbaycan Ermənistana qarşı arbitraj işi üzrə iddia sənədini təqdim edib.***

Bu barədə XİN-dən "Unikal"a məlumat verilib. Bildirilib ki, 12 fevral 2025-ci il tarixində Azərbaycan tərəfi Haaqa şəhərində yerləşən Daimi Arbitraj Məhkəməsinin mənzil-qərargahında 1979-cu il tarixli "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Konvensiya ("Bern Konvensiyası") əsasında Ermənistana qarşı arbitraj işi üzrə iddia sənədini təqdim edib: "İddia sənədində Ermənistanın "Bern Konvensiyası"na dair hüquqi öhdəliklərinin çoxsaylı pozuntuları ətraflı şəkildə öz əksini tapıb.

Azərbaycan öz ərazilərini azad etməklə Ermənistanın ətraf mühiti məhv etməsinə və dünyanın ən zəngin biomüxtəliflik ocaqlarından birində yaşayış mühiti və növlərini qoruya bilmədiyinə dair dəhşətli sübutlar aşkar edib. Ermənistanın hərəkətlərinin bölgədəki canlı təbiətə və növlərinə dönməz şəkildə ciddi ziyan vurduğu müəyyənləşdirilib.

Qeyd edək ki, 18 yanvar 2023-cü il tarixində Azərbaycan sözügedən dəlillərə əsaslanaraq arbitraj prosesinin başlanması üçün Ermənistana arbitraj bildirişi göndərib. 15 sentyabr 2023-cü il tarixində arbit-



raj məhkəməsinin tərkibi təsdiqlənərək, 12 aprel 2024-cü ildə Haaqadakı Sülh Sarayında Azərbaycan ilə Ermənistan arasında ilk prosedur iclası keçirilib".

Qeyd edilib ki, Azərbaycanın Ermənistana qarşı məhkəmə iddiası Bern Konvensiyası əsasında indiyədək məlum olan ilk dövlətlərarası arbitraj prosesidir: "Azərbaycan Ermənistan tərəfindən yaşayış yerlərinin və canlı təbiətin kütləvi şəkildə məhv edilməsinə görə bu ölkədən tam təzminat tələb edir. Buraya Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğalı zamanı əraziyə aid olan yüzlərlə vəhşi təbiət növünə və yaşayış yerlərinə mənfi təsir göstərən addımlar, o cümlədən meşələrin genişmiqyaslı qırılması, ekoloji cəhətdən səmərəsiz şəkildə ağacların kəsilməsi, mədənçilik və su elektrik stansiyalarının tikintisi daxildir.

Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) yaşı 2000-dən çox olan qədim ağacların olduğu Azərbaycanda minlərlə hektar xüsusi mühafizə olunan və qiymətli meşənin zərər gördüyünü bildirib. Bu qoruqlardan bəziləri Bəsitçay vadisindəki şərq çınarı meşəsi kimi nadir və kövrək ekosistemləri qorumaq üçün yaradılmışdı. UNEP hesabatında Oxçuçay çayında da yüzlərlə balığın ölü tapıldığını əlavə edərək, əvvəllər işğal olunmuş ərazilərdə mədənçiliyin "suyun, torpağın və biomüxtəlifliyin kimyəvi çirklənməsinə" səbəb olduğunu sənədləşdirib. İşğal zamanı Ermənistan tərəfindən törədilən hərəkətlər hələ də bir neçə qorunan balıq və amfibiya növünü təhdid edir.

Azərbaycan ədalətin təmini istiqamətində fəaliyyətini davam etdirəcək və Ermənistanın qanunsuz işğalı zamanı ətraf mühitin, heyvan növlərinin və yaşayış yerlərinin məhv edilməsi və qorunmaması ilə bağlı bu ölkəni beynəlxalq məsuliyyətə cəlb edəcək".




## Azərbaycan Milli QHT Forumu USAID-la bağlı Trampa müraciət ünvanlayıb

***Azərbaycan Milli QHT Forumu ABŞ Prezidenti cənab Donald Trampa və DOGE rəhbəri İlon Maska müraciət ünvanlayıb.***

Müraciətdə Azərbaycan QHT-lərinin flaqmanı olan Azərbaycan Milli QHT Forumu olaraq USAID-in qlobal məkanda cinayətkar əməllərinin təftişinə və ifşasına nümayiş etdirdirdikləri qətiyyətə, güclü iradəyə görə onlara minnətdarlığı bildirilib.

"Təəssüflər olsun ki, ötən uzun illər ərzində ABŞ vergi ödəyicilərinin pulları USAID-in korrupsiya yeminə çevrilib, Bayden-Blinken Administrasiyasının qara şəbəkəsinin formalaşdırılması üçün istifadə olunub. Azərbaycan-ABŞ münasibətlərinin itirilmiş illərinə çevrilən Bayden-Blinken dövründə Azərbaycan cəmiyyətində USAID-in ölkədən qovulması, fəaliyyətinin dayandırılması ilə əlaqədar çağırışlar, ictimai qəzəb də artan xətt üzrə güclənib. USAID qrantları Azərbaycanda da ənənəvi, milli-mənəvi dəyərlərə təhqir mahiyyəti daşımaqla, ABŞ-ın bölgədəki imicinə və strateji maraqlarına zərbə vurub.

İctimailəşdirilən faktlar göstərir ki, 1991-ci ildən USAID Azərbaycanda müxtəlif adlar altında layihələrə 410 milyon ABŞ dollarından artıq vəsait xərcləyib. Yeni faktlar hazırda aktiv olan 17 milyon dollarlıq ABŞ-ın müxtəlif qrant layihələrində Azərbaycanın da adının keçdiyini göstərir.

Ümid edirik ki, siz USAID-in Azərbaycandakı cinayətlərinə də nəzər salacaq, ayrılmış qrantların təftişinin aparılmasına göstəriş verəcəksiniz.

600-dən çox üzv QHT-yə malik təşkilat kimi Azərbaycan ictimaiyyətinin belə bir araşdırmanın nəticələrini, qrant dəllal və dələduzlarının de-şifrəsini səbirsizliklə gözlədiyini ifadə edirik", - müraciətdə vurğulanıb.

## ÜDM-in azalmasının səbəbi nədir? - Açıqlama

***"Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin ilk ayında Azərbaycanda 9 milyard 430 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu əvvəlki ilin eyni ayı ilə müqayisədə 0,9 faiz azalma deməkdir".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, ÜDM-də azalmanın əsas səbəbi neft-qaz sektorunda hasilatın aşağı düşməsidir: "Belə ki, bu ilin ilk ayında neft-qaz sektorunda əlavə dəyər 4,0 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 1,0 faiz artıb. Digər tərəfdən, həmin müddətdə əmtəəlik neft hasilatı 6,6 faiz, əmtəəlik qaz hasilatı isə 4,8 faiz azalıb. Bütövlükdə, neft-qaz sektorunda sənaye 4,5 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 9,9 faiz artıb. 2025-ci ilin ilk ayında ÜDM-də azalmanın qeydə alınmasına rəğmən iqtisadi artımın sonrakı aylarda bərpa ediləcəyi gözlənir. ÜDM-də azlamaya rəğmən qeyri neft-qaz sahəsindəki 9,9 faiz artım bu il qeyri-resurs sektorunun iqtisadi artımda drayver olacağından xəbər verir. Neft-qaz sənayesindəki azalma həmçinin mövsümi faktorlar ilə bağlıdır. Bu baxımdan, 2025-ci il üçün proqnozlaşdırılan iqtisadi artım tempinə illik yekunda nail olunacağı gözlənilir".

06_27 IYUI-QARA.qxd 2/13/2025 9:16 PM Page 5



# Prezident onları təltif etdi - Sərəncam



***Azərbaycan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçular təltif edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb.

**"Vətən uğrunda" medalı ilə**

Babayev Azər Ələddin oğlu - polkovnik
Qasımov Elnur Əhməd oğlu - polkovnik
"Hərbi xidmətlərə görə" medalı ilə
Qayqiyev Şamil Mahama oğlu - mayor.

# Rüfət Mahmud sədr təyin edildi



***Rüfət Nahid oğlu Mahmud "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Qeyd edək ki, Rüfət Mahmud bu təyinata qədər SOCAR-ın Rusiyadakı törəmə müəssisəsi - "SOCAR Rus" MMC-nin rəhbəri olub.

# Spiker Somali Prezidenti ilə birgə işçi nahar etdi



***Azərbaycan Respublikasının Milli Məclisinin sədri Sahibə Qafarova və ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud fevralın 13-də birgə işçi nahar ediblər.***

"Unikal" xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Somali arasında münasibətlərin inkişaf perspektivləri, parlamentlərarası əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# ADY-də yeni təyinat

***"Azərbaycan Dəmir Yolları" QSC-də (ADY) kadr dəyişikliyi olub.***

"Unikal" xəbər verir ki, ADY-nin Yük daşımaları departamentinə rəhbərlik Samir Həziyevə həvalə olunub.

Samir Həziyev 1982-ci ildə anadan olub. 2000-2006-cı illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq iqtisadi münasibətlər" ixtisası üzrə bakalavriat və magistratura pillələrini bitirib, daha sonra Dünya Bankının təqaüd proqramını qazanaraq ABŞ-nin Kolumbiya Universitetinin dövlət idarəçiliyi üzrə magistratura pilləsində təhsil alıb.

Əmək fəaliyyətinə 2004-cü ildən Azərbaycan Respublikası Mərkəzi Bankında iqtisadçı kimi başlayıb, sonra Fövqəladə Hallar Nazirliyində müxtəlif vəzifələrdə çalışıb.

2018-ci ildə ADY-də fəaliyyətə başlayıb. 2021-ci ildən İnfrastruktur departamentinin rəis müavini vəzifəsində işləyib.

Qeyd edək ki, Yük daşımaları departamentinin rəisi Emil Əhmədov karyerasında yeni mərhələyə başlamaq üçün ADY-dən ayrılıb.

Emil Əhmədov ADY-də 2016-cı ildə fəaliyyətə başlayıb, bir çox uğurlu layihələrin həyata keçirilməsinə və qurumun inkişafına böyük töhfə verib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5[N]
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# İlham Əliyev Türkiyənin yeni səfirini qəbul etdi

***Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Birol Akgünün etimadnaməsini qəbul edib.***



"Unikal" xəbər verir ki, bununa bağlı Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Səfir etimadnaməsini dövlət başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib. Səfir Birol Akgün Türkiyə Prezidentinin salamlarını dövlət başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.

Dövlət başçısı qeyd edib ki, bu gün dünya miqyasında ən yaxın müttəfiqlər arasında belə Azərbaycan-Türkiyə əlaqələrinin bənzəri və nümunəsi yoxdur. İkitərəfli əsasda strateji müttəfiqlik səviyyəsində olan əlaqələrimizin üçtərəfli platformalarda da inkişaf etdiyini deyən Prezident İlham Əliyev bu xüsusda, Azərbaycan-Özbəkistan-Türkiyə və Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlıq mexanizmlərinin əhəmiyyətini qeyd edib.

Türk dünyasının bizim ailəmiz olduğunu vurğulayan dövlət başçısı bunu Milli Məclisdə Azərbaycan Prezidenti kimi andiçmə mərasimində bir daha dediyini xatırladıb.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığa toxunulub, bu xüsusda ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzvlüyü və üzvlüyümüzün qardaş Türkiyə tərəfindən dəstəklənməsi bir daha vurğulanıb.

Qeyd edilib ki, Azərbaycan və Türkiyə daim çiyin-çiyinə bir-birinin yanındadır. Suriya məsələsində də Azərbaycan Türkiyənin yanında olduğunu ilk günlərdən bəyan edib. Bu xüsusda vurğulanıb ki, Suriyada sabitliyin, təhlükəsizliyin təmin olunmasına və humanitar problemlərin həllinə Azərbaycan da Türkiyə ilə əlaqələndirilmiş şəkildə öz töhfəsini verməyə hazırdır. Bu gün Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun Cənubi Qafqaz regionunda, eyni zamanda, onun hüdudlarından kənarda sabitliyin, təhlükəsizliyin, sülhün və əmin-amanlığın zəmanəti olduğu bir daha qeyd edilib.

Səfir Azərbaycan-Türkiyə münasibətlərinin Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" və Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" prinsipləri əsasında inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin daha da genişləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini deyib.

Azərbaycanın möhtəşəm Qarabağ Qələbəsini xüsusilə qeyd edən Birol Akgün həmin dövrdə də bütün Türkiyə xalqının nəbzinin Azərbaycan xalqı ilə birlikdə döyündüyünü xatırladıb, bu Zəfər münasibətilə dövlət başçısına və xalqımıza bir daha təbriklərini çatdırıb.

# Daha bir ölkə "Rus Evi"ni bağlayır

***Moldova hakimiyyəti Rusiya Elm və Mədəniyyət Mərkəzinin (Rus Evi) bağlanması barədə qərar qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə Moldova Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, fevralın 13-də Kişinyovda Rusiyanın hücum pilotsuz təyyarələrinin ölkənin hava məkanının pozulması ilə əlaqədar 1998-ci ildə bağlanmış mədəniyyət mərkəzlərinin yaradılması və fəaliyyəti haqqında Moldova-Rusiya hökumətlərarası sazişi birtərəfli qaydada denonsasiya edilib.

Xarici İşlər Nazirliyindən bildiriblər ki, xitam proseduru başa çatdıqdan sonra Rusiya Mədəniyyət Mərkəzi Moldovadakı fəaliyyətini dayandırmalıdır.



Həmçinin, Rusiyanın Kişinyovdakı səfiri Oleq Ozerov Moldova Xarici İşlər Nazirliyinə çağırılıb. Onlar "bu yolverilməz pozuntulara kəskin etirazlarını bildiriblər" və belə hadisələrin təhlükəsizlik, Moldova və onun vətəndaşları üçün ciddi təhlükə yaratdığını vurğulayıblar. "Rusiya diplomatına məlumat verilib ki, bu cür hərəkətlər milli suverenliyin pozulması və Rusiya Federasiyasının növbəti qeyri-dost jestidir", - departamentin saytında qeyd olunur.

Sübut kimi Rusiya səfirinə Moldova ərazisinə düşən pilotsuz təyyarələrin fraqmentləri göstərilib. Kişinyovda onlar "bir daha Rusiya hakimiyyətini bu müdaxiləri dərhal dayandırmağa və Moldova Respublikasının suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə ciddi şəkildə hörmət etməyə çağırıblar".

Rusiya pilotsuz təyyarələri Ukraynanın Moldova ilə həmsərhəd olan Odessa vilayətinə hücum edib. Onlardan ikisi Moldova ərazisinə uçaraq orada partlayıb.

Qeyd edək ki, "Rus Evi" "Rossotrudniçestvo"nun maraqlarını təmsil edir. Bakıda fəaliyyət göstərən "Rus Evi" də fəaliyyətini dayandırır.

# MSK bələdiyyə seçkilərinə yekun vuracaq



***Mərkəzi Seçki Komissiyasının iclası keçiriləcək.***

"Unikal" xəbər verir ki, iclasın gündəliyinə bələdiyyə yekunlarının yoxlanılması və təsdiqi daxil edilib.

Qeyd edək ki, Seçki Məcəlləsinin 108.2, 239-cu maddələrinə əsasən, MSK səsvermə günündən başlayaraq ən geci 20 gün müddətində seçkilərin yekunlarını yoxlamalı və təsdiq etməlidir. Bələdiyyə seçkiləri ilə əlaqədar bu müddət 2025-ci il fevralın 18-dək olan müddəti əhatə edir.

# Dövlət zəmanətli borcun məbləği açıqlandı

***2025-ci il 1 yanvar tarixinə dövlət zəmanətli borcun məbləği (daxili və xarici borc) 10.957,4 milyon manat və ya 2024-cü il üzrə olan ÜDM-in 8,7 faizini təşkil edib.***

Bu barədə "Unikal" Maliyyə Nazirliyinə istinadən xəbər verir.

Qeyd edilib ki, dövlət zəmanətinin 9.196,8 milyon manatı (5.409.9 milyon ABŞ dolları) və ya 83,9 faizi xarici kreditlərin, 1.760,6 milyon manatı və ya 16,1 faizi isə daxili kreditlərin payına düşür.

06_27 IYUl-QARA.qxd 2/13/2025 5:49 PM Page 6



# Prezident vergi forumunun iştirakçılarına müraciət etdi

## İlham Əliyev: "Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcək"

***Azərbaycan Prezidenti İlham Əliyev "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarına müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir: "Hörmətli Forum iştirakçıları, "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarını salamlayır və Dövlət Vergi Xidməti işçilərini peşə bayramı münasibətilə təbrik edirəm.



2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümüdür. Respublikamızın ali Qanununun müddəaları dövlətimizin müstəqilliyinin əsaslarını və xalqımızın iradəsini əks etdirərək ölkəmizin demokratik və hüquqi dövlət quruculuğu istiqamətində inamla irəliləməsi üçün zəmindir.

Konstitusiyamızda vətəndaşların əsas vəzifələrinə aid edilmiş mühüm müddəalardan biri onun 73-cü maddəsində əks olunub: "qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur". Konstitusiyamızda vergilərə dair müəyyən edilmiş bu müddəa dövlətimizin maliyyə sabitliyinin və davamlı inkişafının təminatı olub, ölkəmizin hüquqi və iqtisadi inkişafı yolunda möhkəm təməl yaradır.

Azərbaycan yüksək inkişaf potensialına malik dinamik bir iqtisadiyyata sahibdir. Biz böyük infrastruktur layihələrini icra edir, müxtəlif sahələrdə rəqabət qabiliyyətini artırmağa yönəlmiş islahatlar həyata keçirir, dayanıqlı və innovativ iqtisadiyyat qurmaqla yanaşı, xarici investisiyaları cəlb edir və yerli istehsalın gücləndirilməsi istiqamətində mühüm addımlar atırıq. Uğurlarımız dayanıqlı iqtisadi artımın sürətini artırmaqla yanaşı, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Bizim yolumuz davamlı inkişafa və şəffaf idarəetməyə əsaslanır.

Hazırda başlıca hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" yaxın gələcəkdə inkişaf konsepsiyamızın əsasını təşkil edir. Davamlı güclənən rəqabətqabiliyyətli iqtisadiyyatın, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması, ölkəmizin rəqabətli insan kapitalına söykənən müasir innovasiyalar məkanına və "yaşıl artım" ölkəsinə çevrilməsi, işğaldan azad edilmiş ərazilərimizin yenidən məskunlaşdırılması qarşımızda duran əsas prioritetlərdir. Bu milli prioritetlərin hər biri qarşılıqlı və əlaqəli şəkildə icra edildikdə yüksək nəticələr verəcəkdir.

Bu məqsədlərin reallaşdırılmasının təməlində dövlətin iqtisadi qüdrəti, gəlirləri, fiskal dayanıqlığı durur. Güclü maliyyə imkanlarının formalaşdırılmasına isə effektiv vergi sistemi töhfə verə bilər. Maliyyə imkanlarımızın ildən-ilə artması, büdcə gəlirlərimizin fiskal dayanıqlığı prosesində effektiv və proaktiv vergi siyasətinin həyata keçirilməsi olduqca vacibdir. Vergi sistemində aparılan islahatlar, vergi inzibatçılığında tətbiq olunan yeni yanaşma və mexanizmlər iqtisadiyyatda şəffaflaşmanı keyfiyyətcə yeni bir mərhələyə qaldırıb. Bu gün vergi siyasəti həm aktiv iqtisadi tənzimləmə vasitəsi, həm də stimullaşdırıcı alətdir. Hazırda bütün fiskal yığımların əhəmiyyətli hissəsini məhz vergi orqanları təmin edir.

Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı üçün möhkəm təməl yaradıb. Bu ərazilərdə infrastrukturun bərpası, yeni sənaye və kənd təsərrüfatı sahələrinin yaradılması istiqamətində atdığımız addımlar, regionun milli iqtisadiyyata reinteqrasiyası gələcəkdə əhəmiyyətli irəliləyişlərə səbəb olacaq. İqtisadiyyatın diversifikasiyası və yerli əhalinin sosial rifahının təmin edilməsi bu ərazilərin sürətli inkişafını təmin edəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcəkdir.

Bu prosesdə vergi siyasətinin və vergi təşviq alətlərinin də böyük rolu var. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün uzunmüddətli vergi və gömrük güzəştləri müəyyən edilib. Ərazi bütövlüyümüzün tam bərpa edilməsi xarici investorların da ölkəmizə marağını artırır. Uzun illərdir Azərbaycanda müsbət sərmayə iqlimi mövcuddur, investisiyaların adambaşına düşən həcminə görə biz qabaqcıl ölkələr sırasındayıq. Bununla belə, regionda iqtisadi dayanıqlığın təmin olunması, investisiyaların əhatə dairəsinin daha da genişlənməsi üçün biz daha cəlbedici biznes və vergi mühiti yaratmalıyıq. Sahibkarlara güclü dəstək verilməlidir, süni maneələr aradan qaldırılmalıdır. Dövlətin tənzimləyici qurumlarının əsas vəzifəsi ölkədə biznesin genişlənməsinə, büdcəyə vergi ödəyən güclü orta və iri sahibkarlar təbəqəsinin formalaşmasına istiqamətlənməlidir. Biz qüdrətli dövlət qururuq, belə dövlətin vətəndaşı isə vergi ödəməkdən qürur duymalıdır.

Vergi sistemi ölkəmizin inkişafında müstəsna rol oynayır və vergi işçiləri həm də dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində mühüm funksiya yerinə yetirirlər. Vergi işçiləri yalnız büdcə gəlirlərinin təminatçısı deyil, həm də iqtisadi sabitliyin və sosial ədalətin qorunması işində önəmli bir missiyanın icraçısıdırlar. Fəaliyyətiniz dövlət büdcəsinin formalaşdırılmasında, eyni zamanda iqtisadi və sosial layihələrin həyata keçirilməsində xüsusi rol oynayır. Vergi ödəyiciləri ilə effektiv əməkdaşlıq, vergi ödəmələrinin düzgün və vaxtında həyata keçirilməsi yalnız iqtisadiyyatı deyil, həm də xalqın dövlətə olan etimadını gücləndirir.

Ölkəmizin qarşısında duran hədəf və vəzifələr çoxdur. Bu yolda sizin öz işinizə münasibətiniz və vətənə sədaqətiniz bizim üçün qiymətli sərvətdir. Əminəm ki, bu şərəfli vəzifəni yüksək səviyyədə yerinə yetirməkdə və ölkəmizin daha da qüdrətlənməsinə töhfə verməkdə davam edəcəksiz.

Dövlət Vergi Xidmətinin bütün kollektivinə möhkəm cansağlığı, peşə fəaliyyətində uğurlar diləyirəm. Sizi bir daha təbrik edir, ölkəmizin inkişafı və rifahı yolunda atdığınız hər bir addımda müvəffəqiyyətlər arzulayıram!".

# Bu vəzifəni də Samir Şərifov icra edəcək



***Azərbaycan ilə Belarus arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın sədri dəyişib.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin müvafiq Sərəncamında əksini tapıb.

Sərəncama əsasən, Komissiyanın sədri artıq Samir Şərifov olacaq. İndiyə qədər komissiyaya Əli Əhmədov sədrlik edirdi.

# Maqsud İbrahimbəyovun 90 illiyi qeyd ediləcək

***Prezident İlham Əliyev Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamda qeyd olunur ki, 2025-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı, tanınmış ictimai xadim Maqsud Məmmədibrahim oğlu İbrahimbəyovun anadan olmasının 90 ili tamam olur.

Maqsud İbrahimbəyov parlaq istedada malik nasir kimi çoxşaxəli fəaliyyəti ilə Azərbaycan bədii fikrinin zənginləşməsində təqdirəlayiq rol oynamış söz ustalarındandır. Ötən əsrin 60-cı illərində yeni ədəbi prosesin formalaşmasında yaxından iştirak edən sənətkar ərsəyə gətirdiyi dəyərli nəsr nümunələrində qəhrəmanlarının xarakterini dərindən açaraq dolğun və rəngarəng obrazlar yaratmışdır. Onun, eyni zamanda dramaturq, kinossenarist və rejissor kimi Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm xidmətləri vardır. Milli koloritin qabarıq təsviri, adət-ənənələrə bağlılıq, xüsusən Bakı mühitinin özünəməxsus mənzərəsinin təsviri Maqsud İbrahimbəyov yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdir.

Sərəncama əsasən, Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xalq yazıçısı Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alınır:

- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı Maqsud İbrahimbəyovun 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
- Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Turan İnformasiya Agentliyi fəaliyyətini dayandırır

***"Turan" İnformasiya Agentliyi fəaliyyətini dayandırır.***

"Unikal"ın məlumatlna görə, bu barədə agentliyin saytında bildirilib.

Agentliyin direktoru Mehman Əliyevin kollektiv adından etdiyi müraciətində bildirilib ki, "Turan" fəaliyyətini maliyyə çətinlikləri ilə bağlı dayandırır: "Bu gün qaçılmaz bir reallıqla üzləşirik: daimi maliyyə çətinlikləri səbəbindən informasiya fəaliyyətimizi hazırkı formatda davam etdirmək mümkün deyil. Davam etmək üçün zəruri resursları təmin etmək yolunda dayanmadan göstərdiyimiz səylərə baxmayaraq, bizi uzun illər təqib edən maliyyə çətinlikləri nəhayət agentliyin fəaliyyətini mövcud formatda dayandırmaq barədə ağır qərar qəbul etməyə məcbur etdi".

06_27 IYUl-QARA.qxd 2/13/2025 5:49 PM Page 7



# "Azərbaycan Rusiyadan mehriban qonşuluq münasibətini görmək istəyir"

## Aydın Mirzəzadə: "Nəyə görə Rusiyanın siyasi-ictimai xadimləri, alimlər, din xadimləri Azərbaycanın həssas məsələsinə münasibət bildirmədilər?"

***Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Avropa İttifaqının "missiyası"nın növbəti dəfə Azərbaycan sərhədində müşahidə aparmasından, Azərbaycanın Ermənistandan tam təzminat tələb etməsindən, Ermənistanın "Sülh kəsişməsi" layihəsinin məqsədindən və Rusiya-Azərbaycan münasibətlərindən danışıb.***

***-Aydın müəllim, Avropa İttifaqının (Aİ) "missiyası" növbəti dəfə Azərbaycan sərhədində müşahidə aparıb. Onların Azərbaycan mövqeləri istiqamətində foto və videoçəkiliş etməsi qeydə alınıb. Ümumiyyətlə, son vaxtlar Aİ "missiyası"nın belə müşahidə aparmasının sayı artıb. Onların bu addımlarının məqsədi nədir?***

-Avropa İttifaqının Ermənistanda yerləşən missiyasının vəzifəsi indiyə qədər Azərbaycan, o cümlədən dünyaya aydın deyil. Onlara Sülhməramlı qüvvələr deyirlər. Azərbaycan onların orada uzun müddət yerləşməsinə razılıq verməyib. Bir ölkə ərazisindən hansısa üçüncü tərəfin daim digər ölkəni müşahidə etməsi diplomatik hörmətsizlikdir. Son dövrlərdə açıq-aşkar Ermənistandan Azərbaycan ərazisinin foto və video şəkillərinin çəkilməsi diplomatik qalmaqaldır. Bu, yolverilməz hərəkətdir. Ermənistanla şərti sərhəd zonasında Azərbaycanın hərbi hissələri, texnikası və strateji qurğuları yerləşir. Bu fotoların Ermənistan ərazisində Avropa İttifaqı nümayəndələri tərəfindən çəkilməsi onların fəaliyyətinə böyük kölgə salır. Bunlar hansı məqsədlə, nədən ötrü çəkilir? Kim onlara ixtiyar verib ki, bizim obyektlərin fotolarını çəksinlər? Eyni zamanda, onların Azərbaycanla şərti sərhəd xəttinə paralel avtomobillə ora-bura hərəkət etməsinə nə ad vermək olar? Həmin missiyanın Ermənistanda yerləşməsinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına hər hansı təsiri yoxdur. Bu gün Azərbaycan və Ermənistan münasibətləri vasitəçi olmadan özləri həll edirlər. Vaxtaşırı baş nazirin müavinləri görüşürlər. Bu yaxınlarda əsir və itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi ilə bağlı hər iki ölkənin komissiya üzvləri görüşüblər. Bu, çox həssas məsələdir. Minlərlə ailə öz yaxınlarının taleyi ilə maraqlanırlar. Bu məsələlər həll edilir, digərləri də həll olunacaq. İmkan düşdükcə, ölkə liderləri beynəlxalq tədbirin platformasında görüşür və müəyyən məsələlər barəsində razılığa gəlirlər. Adıçəkilən missiyanın fəaliyyəti münasibətlərin normallaşmasına mənfi təsir edir. Ermənistandakı anti-Azərbaycan qüvvələrinin qızışmasına, onların yenə də Azərbaycana qarşı revanşist əhval-ruhiyyəsinin yüksəlməsinə səbəb olur. Həmin missiya fəaliyyəti ilə bağlı özünə hesabat verirmi? Hesab edirəm ki, bu məsələ ciddi şəkildə Avropa Birliyi rəhbərliyi qarşısında qaldırılmalıdır. Onlardan bu missiyanın geri çağırılması, fəaliyyətinin dayandırılması tələb edilməlidir. Görünən odur ki, Avropa Birliyinin müəyyən dairələri yalançı sülhpərvərlik əhval-ruhiyyəsi yaratmağa çalışırlar. Əvəzində isə sülhü ləngidirlər. Müharibədən yeni çıxmış iki ölkə arasında sülhün yaranmasına maneçilik törədirlər. Onların etdiklərinin nə sülhə, nə diplomatiyaya, nə də beynəlxalq hüquqa heç bir aidiyyəti yoxdur. Yəqin ki, bu məsələ Azərbaycan tərəfindən beynəlxalq təşkilatlar qarşısında qaldırılacaq.

***-Məlum olduğu kimi, Azərbaycan Ermənistana qarşı arbitraj işi üzrə iddia sənədini təqdim edib. Azərbaycan öz ərazilərini azad etməklə Ermənistanın ətraf mühiti məhv etməsinə və dünyanın ən zəngin biomüxtəliflik ocaqlarından birində yaşayış mühiti və növlərini qoruya bilmədiyinə dair dəhşətli sübutlar aşkar edib. Ermənistanın hərəkətlərinin bölgədəki canlı təbiətə və növlərinə dönməz şəkildə ciddi ziyan vurduğu müəyyənləşdirilib. Ermənistan tərəfinin təzminat ödəməsi məsələsinin necə olacağını düşünürsüz?***



-Bunu etməkdə Azərbaycanın tam hüququ var. Ərazilərimizin bir hissəsi uzun müddət Ermənistanının işğalı altında qalıb. Bu gün məhkəməsi keçirilən separatçı qurumun rəhbərləri bildirirlər ki, onlar hər-hansı bir qərar qəbul etməkdə müstəqil deyildilər. Bütün tapşırıqlar İrəvandan gəlirdi. Onlar sadəcə ərazilərimizi işğal etmədilər. Həmçinin, infrastrukturu dağıtdılar, təbiətimizə böyük zərər vurdular, çaylarımızı zəhərlədilər, meşələrimizi qırdılar, heyvanat aləmini didərgin saldılar, tarixi abidələrimizi dağıtdılar. 67 məsciddən 65-i yerlə-yeksan edildi. Yer adlarını dəyişməyə cəhd etdilər, əcaib və uydurma erməni adları qoydular. Dünya ictimaiyyətinə işğal etdiyi ərazinin tarixən erməni torpağı olduğu iddiası ilə sərsəm çıxışlar etməyə başladılar. Bunların hamısı göz qabağında olan məsələlərdir. Azərbaycanın Ermənistanın işğalı dövründə ölkəmizə vurduğu zərərə görə təzminat tələb etməsi tamamilə düzgün məsələdir. Hər bir təşkilat, dövlət atdığı addımlara görə məsuliyyət daşımalıdır. Etdiklərinə görə nə vaxtsa cavab verməli olacağını dərk etməlidir. Düzdür, indiki Ermənistan rəhbərliyi əvvəlki 30 ildə Azərbaycana qarşı təxribata cəht etməyiblər. Amma onlar əvvəlki hakimiyyətin Azərbaycana qarşı aqresiyasına görə üzr istəməyiblər. Əvvəlki administrasiyaların etdiklərinin qanunsuz, hüquqa zidd və vəhşilik olduğunu dillərinə gətirmirlər. Bu o deməkdir ki, onlarla birlikdə indiki siyasi hakimiyyət də məsuliyyət daşıyır. Azərbaycanın verdiyi iddia ərizəsində konkret faktlar var. Heç də bu söz, sadəcə şüar deyil. Azərbaycan faktlarla, konkret əməllərlə beynəlxalq məhkəmə qarşısında özünün suveren hüquqlarına dair iddialar qaldırır. Ermənistan bu məsələlərə cavab verməlidir. Hesab edirəm ki, Azərbaycanın bu addımı dünyanın digər bölgələrində qonşu dövlətlərə qarşı aqresiya həyata keçirmək istəyən və ya keçirmiş ölkələr üçün də xəbərdarlıq olmalıdır. Haqq-ədalət nə vaxtsa öz yerini tutur və ona cavab vermək lazım gəlir. Azərbaycanın iddiası əsaslıdır, faktlarla zəngindir. İnanmıram ki, Ermənistan bu faktların hansınısa təkzib edə bilsin. Onların təkzib edə biləcəyi heç nə yoxdur. İşğal faktı, Ermənistan qoşunlarının Azərbaycanda olması ortdadır, abidələrimizin dağıdılması, meşələrimizin qırılması və çaylarımızın zəhərlənməsi göz qarşısında olan məsələdir. Onlar hər bir cəmiyyət üçün həssas olan məsələyə - qəbiristanlıqlardakı qəbir daşlarının üzlüyünü söküb apardılar. Evləri talan edibər. Əsirlərimizi qul kimi həmin söküntü işlərində istifadə ediblər. Ermənistan gec-tez bunlara görə cavab verməlidir.

***- Azərbaycan Prezidenti İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə Ermənistanın "Sülh kəsişməsi" layihəsinə diqqət çəkib. Dövlət başçısı bildirib ki, sözügedən "layihə"nin Azərbaycansız iki qəpiklik də qiyməti yoxdur və bu, dəfələrlə Ermənistan tərəfinə müxtəlif kanallar vasitəsilə çatdırılıb. Belə ki, İrəvan Tehranla birlikdə "Şimal-Cənub", "Sülh kəsişməsi" kimi reallaşması mümkün olmayacaq layihələr irəli sürərək Azərbaycan ərazisindən keçəcək Şimal-Cənub dəhlizi və Zəngəzur yoluna alternativ yaratmağa çalışır. Onların bu kimi iddiaları hansı məqsəd daşıyır?***

-Ermənistan növbəti dəfə sülh göyərçini obrazı yaratmağa çalışır. "Sülh kəsişməsi"adlı layihə irəli sürür. Ancaq həmin layihənin həyata keçməsi mümkün olan məsələ deyil. Ermənistanın açıq dənizə çıxışı yoxdur. O dünyaya çıxış üçün mütləq ya Azərbaycan, ya da Türkiyə ərazisindən istifadə etməlidir. Gürcüstan ərazisindən istifadə etsə də, istifadə etdiyi hərbi Gürcüstan yolu özünün buraxılış imkanlarına görə çox məhduddur. Ermənistanın həmin yolu əlavə yükləməsinə Gürcüstan heç bir zaman razı olmayacaq. Ermənistan məqsədli surətdə böyük dövlətlərin iştirakçısı olduğu Şimal-Cənub layihəsinə alternativ irəli sürmək istəyir. İranla birgə iş birliyini bu gün regionun əsas xilas yolu kimi təqdim etməyə çalışır. Ermənistan İranla istənilən məsələləri birgə müzakirə edə və ya qərar qəbul edə bilər. Nəzərə alsaq ki, İranın özünün dünya ilə problemləri var və bu iki dünyaya çıxışında problemi olan ölkənin hansı məsələni həll edəcəyi böyük sual altındadır. Həmçinin, Azərbaycanın iştirakı olmadan Ermənistanın regionda hər hansı təşəbbüslə çıxış etməsi, onun reallaşması qeyri-mümkün olan məsələdir. Cənab Prezident çox düzgün olaraq həmin layihənin 2 qəpiklik qiyməti olmadığını bildirdi. Real layihələr Azərbaycanın irəli sürdükləridir. Bakı-Tbilisi-Ceyhan neft kəmərini qeyd edək. Əgər işğal faktoru olmasa idi, o Ermənistandan keçərdi və onlar bundan böyük gəlir əldə edə bilərdilər. Bakı-Tbilisi-Ərzurum qaz kəməri də Ermənistandan keçə bilərdi. Eyni zamanda, bu gün Azərbaycanın Cənubi Avropa ölkələrinə elektrik enerjisi ötürməsinin özü də çox perspektivli biznes layihəsidir. Ermənistan bütün bunların hamısından geridə qalır. Ermənistan min bir bəhanə ilə Zəngəzur dəhlizinin açılmasına mane olur. Azərbaycan buna alternativ olaraq İran ərazisindən keçən yolu reallaşdırır. Bu işə düşdükdən sonra Ermənistan yenə də gələcəyə gedən qatardan kənarda qalacaq və böyük iqtisadi imkanlardan məhrum olacaq. Onun etdikləri özünə sui-qəsd cəhdidir. Ermənistanın vaxtaşırı sülh adı ilə irəli sürdüyü layihələrdə Azərbaycanın iştirakı, qanuni milli maraqları nəzərə alınmasa, bu, sözdən və hədər istifadə edilmiş kağızdan başqa heç nə olmayacaq.

***-Azərbaycan təyyarəsinin Qroznı səmasında vurulmasından sonra Rusiya-Azərbaycan münasibətlərində soyuqluq yaranıb. Rusiyanın bunu törətməsini etiraf etməməsi vəziyyəti bir qədər də qəlizləşdirib. Eyni zamanda, ölkəmizə qarşı müxtəlif səviyyələrdə təhdid dolu fikirlər səsləndirilir...***

-Azərbaycan təyyarəsinin ötən ilin dekabr ayında Rusiya ərazisində silahlı qüvvələr tərəfindən vurulması məsələsi indiyə qədər aktualdır. Mülki təyyarə hərbçilər tərəfindən vurulub. Bu Rusiya ərazisində vurulduğu üçün buna görə də Rusiya üzr istəməkdən başqa təzminat verməlidir. Rusiya belə hallarına baş verməməsi üçün öz üzərinə öhdəlik götürməlidir. Rusiya hərbçilərinin buraxdığı cinayət hesab olunacaq səhvlər nəticəsində 40-a yaxın insan həyatını itirdi. Gözləmək olardı ki, bu məsələdən sonra Rusiya ictimaiyyətində Azərbaycanın ağrılı məsələsinə həssaslıqla yanaşılacaq. Görünən ondan ibarətdir ki, Rusiya parlamentinin hansısa deputatı, QHT-lər, mətbuat bu məsələdə Azərbaycanı ittiham etməyə çalışırlar. Bunlar yolverilməzdir. Düzdür, yüksək rəsmi səviyyədə Azərbaycanla bağlı hər hansı düşmən mövqeyi bildirilməyib. Amma nəyə görə hakimiyyətə yaxın olan mətbuat bu məsələdə Azərbaycana özünün ehtiramını bildirmir. Nəyə görə Rusiyanın siyasi-ictimai xadimləri, alimlər, din xadimləri Azərbaycanın həssas məsələsinə münasibət bildirmədilər? Azərbaycan və Rusiya strateji müttəfiqdirlər, qonşudurlar, yaxşı münasibətlərimiz var. Azərbaycan bu gün sərgilədiyi mehriban qonşuluq münasibətini eyni zamanda Rusiya tərəfindən görmək istəyir. Bu baxımdan, ortada olan suallara cavab verilməlidir. Münasibətləri böhranlı hesab etmirəm və Rusiyanın Azərbaycanı itirmək məqsədi olduğunu da düşünmürəm. Amma bununla belə bu ağrılı məsələ hələ də cəmiyyətimizin gündəmində olduğu üçün Rusiya tərəfinin buna həssaslıqla yanaşmasını gözləyirik.

***Anar Kəlbiyev***

06_27 IYUI-QARA.qxd 2/13/2025 9:41 PM Page 8



# Dövlət Məşğulluq Agentliyinin 62 milyon manatlıq tenderi ilə bağlı müəmma

## Qurumdan böyük məbləğli satınalmalar qazanan şirkətin hətta sosial şəbəkə hesabları belə yoxdur

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi tərəfindən idxal inək, idxal qoyun, idxal qoç, keçi, təkə, arı ailəsi və digər malların alınması və özünüməşğulluq layihəsi çərçivəsində təchizatı işlərinin satın alınması məqsədilə 2024-cü il 13 dekabr tarixində keçirilmiş açıq tender proseduruna yekun vurub. Tələblərə uyğun və aşağı qiymət (62 146 514,00 AZN) təqdim etmiş "Agro Best " Qapalı Səhmdar Cəmiyyətinin təklifinin aksept edilməsi nəzərdə tutulur.***



Qeyd edək ki, Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq layihəsi çərçivəsində idxal inək, idxal qoyun, idxal qoç, keçi, təkə, arı ailəsi və digər malların alınması üzrə " Agro Best "lə daha əvvəlki illərdə də bir neçə satınalma müqaviləsi bağlayıb.

"Aktualinfo"nun yazdığına görə, dövlət satınalmalarının vahid internet portalına yerləşdirilmiş məlumatlara görə tərəflər arasında 65.987.525 manat məbləğində 27.04.2022-ci ildə, 4.140.900 manat məbləğində 20.12.2022-ci ildə, 73.574.800 manat məbləğində 16.03.2023-cü ildə, 7.044.690 manat məbləğində 09.10.2023-cü ildə, 66.854.876 manat məbləğində 16.05.2024-cü ildə, 175.538,88 manat məbləğində 07.11.2024-cü ildə satınalma müqavilələri bağlanıb.

Göründüyü kimi, Dövlət Məşğulluq Agentliyi son üç ildə "Agro Best " Qapalı Səhmdar Cəmiyyəti ilə ümumi dəyəri 217778329 manat məbləğində 6 satınalma müqaviləsi bağlayıb. Bağlanılması nəzərdə tutulan bu tenderi də əlavə etsək bu 279 924 843 manat dövlət vəsaiti edir.

Bəs bu şirkət haqqında açıq mənbələrdə hansı məlumatlar var?

Dövlət Vergi Xidmətinin hüquqi şəxslərin dövlət reyestrinə daxil edilmiş məlumatlarında "Agro Best" (VÖEN:1405235391) Qapalı Səhmdar Cəmiyyətinin 20.08.2020-ci il tarixdə Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsində dövlət qeydiyyatına alındığı göstərilir. Reyestr məlumatlarında nizamnamə kapitalı 2010.00 manat olan QSC-nin hüquqi ünvanının, Bakı şəhəri Nəsimi rayonu, Feyzulla Qasımzadə, ev 1, m. 48, qanuni təmsilçisi kimi isə İsmayılov Anar Əlif oğlu qeyd olunub.Reyestrə edilmiş dəyişikliklərdə Məhdud Məsuliyyətli Cəmiyyət kimi dövlət qeydiyyatına alınıb. 22.04.2021-ci ildə təşkilatı hüquqi formasını dəyişərək Qapalı Səhmdar Cəmiyyətinə çevrilib. Təsisçisi və ilk qanuni təmsilçisi Səmədov Taleh Tofiq oğlu olub. Daha sonra Ələkbərov Nahid Kamil oğlu müxtəlif vaxtlarda şirkətə rəhbərlik edib.

Şirkət haqqında açıq mənbələrdəki başqa məlumatlara gəlincə, məsələn, elektron medianın 09.10.24-cü ildə yaydığı məlumatda mal-qara satışı ilə məşğul olan "Agro Best" QSC gömrük qaydaları əleyhinə olan inzibati xətaya görə cərimələndiyi, Dövlət Gömrük Komitəsi tərəfindən şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 485.2-ci (Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsinə görə) maddəsinə əsasən cərimə protokolu tərtib edildiyi bildirilir.

Protokol baxılması üçün Nəsimi Rayon Məhkəməsinə göndərilib. Hakim Babək Pənahovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, şirkətə inzibati tənbeh tətbiq edilib, yəni cərimə kəsilib. Cərimənin məbləği açıqlanmayıb.

Yenə elektron mediada yayılan məlumatda 22 oktyabr 2024-cü ildə mal-qara satışı ilə məşğul olan "Agro Best" QSC-nin gömrük qaydaları əleyhinə olan inzibati xətaya görə cərimələndiyi, Dövlət Gömrük Komitəsi tərəfindən şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 485.2-ci (Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsinə görə) maddəsinə əsasən cərimə protokolu tərtib edildiyi bildirilir. Protokol baxılması üçün Nəsimi Rayon Məhkəməsinə göndərilib. Hakim Anar İbadzadənin sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, şirkətə inzibati tənbeh tətbiq edilib, yəni cərimə kəsilib.

Xatırladaq ki, gömrük qaydaları əleyhinə olan inzibati xətaya görə vəzifəli şəxslər 1000 manat məbləğində, hüquqi şəxslər 1500 manat məbləğində cərimə edilir.

Maraqlıdır ki, dövlət qeydiyyatından keçdikdən qısa müddət sonra 300 milyon manata yaxın dəyəri olan tenderlərin qalibinin "Agro Best" QSC-nin nəinki veb-saytı, hətta sosial şəbəkə hesabları belə yoxdur.

Digər tərəfdən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında 2010-cu il 27 may tarixli, 97 nömrəli qərarının 5-ci ( İllik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının dərc edilməsi) bəndinə əsasən, büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatlarından illik maliyyə hesabatının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə həmin internet səhifəsində və ya mətbu orqanda dərc olunması tələb edilir. Lakin internet axtarış sistemləri üzərindən aparılan araşdırmada "Agro Best"in son illər büdcədən müəyyən səlahiyyətlərin yerinə yetirməsinə baxmayaraq illik maliyyə hesabatları barədə heç bir məlumata rast gəlinmir.

Onu da əlavə edək ki, müasir dövrdə bir şirkətin şəffaflığı, etibarlılığı baxımından onun rəsmi internet resursunun olması vacib məsələ sayılır. Ən azı bu səbəbdən bir dövlət qurumundan bir neçə ildə yüz milyonlarla manatlıq tender qazanan bir şirkətin ilin-günün bu vaxtı belə bir resursa malik olmaması təəccüblü məqamdır.

Yeri gəlmişkən, nə Dövlət Məşğulluq Agentliyi, nə də adı çəkilən MMC hələ ki, mediada müzakirə predmetinə çevrilən satınalmalar barədə yazılanlara hələ ki, münasibət bildirməyib.

***Sənan Mirzə***

# "Bakı Mərkəzi Valyuta" və "Eliko" MMC cərimələndi



***Azərbaycan Mərkəzi Bankı (AMB) iki valyuta mübadilə məntəqəsini cərimələyib.***

"Unikal" AMB-yə istinadən xəbər verir ki, bunlar "Bakı Mərkəzi Valyuta" və "Eliko" MMC-lərdir.

Qeyd edilib ki, Mərkəzi Bankın apardığı cari nəzarət prosesləri çərçivəsində valyuta tənzimi haqqında qanunvericiliyin tələblərinin pozulması aşkarlanıb. İnzibati Xətalar Məcəlləsinin 602.4-cü maddəsinə müvafiq olaraq, "Bakı Mərkəzi Valyuta"nın vəzifəli şəxsi Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin qərarı ilə 1 000 manat cərimə olunub. "Eliko"nun vəzifəli şəxsi isə Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin qərarı ilə 1 500 manat, MMC özü isə valyuta tənzimi haqqında qanunvericiliyin tələblərini pozması ilə əlaqədar İnzibati Xətalar Məcəlləsinin 430.3-cü maddəsinə müvafiq olaraq, 10 334 cərimə edilib.

# FHN "Show Baku" restoranının fəaliyyətini dayandırdı




***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti səlahiyyətləri daxilində ölkə ərazisində yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir.***

Bu barədə "Unikal"a Fövqəladə Hallar Nazirliyindən məlumat verilib. Bildirilib ki, Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Binəqədi rayonu, Əhməd Rəcəbli küçəsi, ev 3103-cü məhəllədə yerləşən "Show Baku" restoranında keçirilən yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcud olduğu, həmin nöqsanların insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyən edilib. Belə ki:



- obyektdə avtomatik yanğınxəbərverici siqnalizasiya qurğusu quraşdırılmayıb;
- obyektin tüstü bacası təmizlənməyib;
- obyektdə yanğın su hovuzu mövcud deyil;
- elektrik təsərrüfatı "Elektrik Qurğularının Quraşdırılması Qaydası"nın tələblərinə uyğun quraşdırılmayıb, o cümlədən elektrik naqilləri yanar materialların üzəri ilə çəkilib;
- obyektin taxta konstruksiyalarına odadavamlı məhlul hopdurulmayıb, tavan hissəsi və daxili divarları yanar örtüklə üzlənilib;
- təxliyə planı və zal hissəsində ikinci təxliyə çıxış qapısı mövcud deyil;
- obyektin daşınmaz əmlakı "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sığorta olunmayıb.

Beləliklə, mövcud vəziyyət onu göstərir ki, obyektin istismarının davam etdirilməsi nəticəsində orada hər an baş verə biləcək yanğın qısa müddətdə genişlənərək faciəni qaçılmaz edəcək.

Qeyd olunanları nəzərə alaraq, yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinin kobud pozulması faktları aşkar edilmiş Bakı şəhəri, Binəqədi rayonu, Əhməd Rəcəbli küçəsi, ev 3103-cü məhəllədə yerləşən "Show Baku" restoranının fəaliyyətinin dayandırılması barədə Qərar qəbul olunub və Qərarın bir nüsxəsi obyektin nümayəndəsinə təqdim edilib.

06_27 IYUI-QARA.qxd 2/13/2025 5:50 PM Page 9



# Mikayıl Cabbarov aktiv vergi ödəyicilərinin sayını açıqladı



***"Azərbaycanda 800 minə yaxın aktiv vergi ödəyicisi var. Onların sayı artmaqda davam edir".***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" Forumunda bildirib.

"Vergi işçilərinin sayı isə 3 minə yaxındır. Bizim bu iki qrup arasında sayda ciddi balansa nail olmaq niyyətimiz yoxdur. Əksinə, niyyətimiz var ki, maksimal şəkildə vergi bazasını daha yığcam, daha çevik və daha az sayda fəaliyyət göstərən kollektiv həyata keçirə bilsin. İnsan kapitalı Vergi Xidməti üçün əsas dəyərdir", - M.Cabbarov qeyd edib.

İqtisadiyyat naziri həmçinin əlavə edib ki, Azərbaycan iqtisadiyyatı üçün prioritet sahələrdə ciddi vergi güzəştləri tətbiq olunur: "İşğaldan azad edilmiş ərazilərimizin reinteqrasiyasına görə təşviqlər, həssas sosial təbəqələr üçün güzəştlər, özəl sektoru stimullaşdıran addımlar, sənaye parklarında rezidentlər üçün azadolmalar, startaplar üçün stimullar, ekoloji mühiti inkişaf etdirən vergi güzəştlərini qeyd etməliyik. Bunlar ölkəmizdə iqtisadi aktivliyə, sosial rifaha və qeyri-neft sektorunun inkişafına təkan verən mühüm islahatlar paketini təşkil edir.

Vergi sistemində islahatlar və qanunvericilikdə dəyişikliklər "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hədəfləri ilə uzlaşır".

# Banklarla bağlı bu qayda təsdiqləndi




***Azərbaycan Mərkəzi Bankı (AMB) mütərəqqi beynəlxalq təcrübə və standartlar əsasında hazırladığı "Banklarda əməliyyat risklərinin idarə edilməsi Qaydası"nı təsdiq edib.***

"Unikal" AMB-yə istinadən xəbər verir ki, qaydanın əsas məqsədi banklarda fəaliyyətin davamlılığının artırılması və əməliyyat mühitində hadisələrə daha çevik reaksiyanı təmin etməklə, əhəmiyyətli maliyyə itkilərinin qarşısının alınmasını dəstəkləməkdir.

Yeni qəbul edilmiş requlyativ qaydada xüsusilə, banklarda əməliyyat risklərinin idarə edilməsi sisteminə, əməliyyat risklərinin müəyyən edilməsi, qiymətləndirilməsi və monitorinqinə, bankdaxili və nəzarət orqanına hesabatlılığa, habelə əməliyyat risk hadisələri barədə məlumat bazasının formalaşdırılmasına dair tələblər müəyyən edilib.

Bu çərçivənin tətbiqi banklarda əməliyyat riskləri hadisələrinə dair mövcud məlumat bazasının genişləndirilməsinə, əməliyyat risk hadisələri nəticəsində bankın qarşılaşdığı zərərin daha dəqiq hesablanmasına və növbəti dövrlərdə əməliyyat risklərinə dair kapital tələbləri üzrə banklar tərəfindən daha təkmil yanaşmaların tətbiqinə imkan yaradacaq.

# Şahin Bağırov: "Kölgə iqtisadiyyatının qarşısının alınması..."

***Vergilərdən yayınma hallarına qarşı mübarizə istiqamətində aparılan islahatlar, Azərbaycanda vergi sisteminin müasirləşdirilməsi və qlobal iqtisadiyyata inteqrasiyasını stimullaşdırır.***

Bunu Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov bu gün keçirilən "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" adlı Forumda deyib.

O bildirib ki, iqtisadi təhlükəsizliyimizə ciddi təhdid yaradan kölgə iqtisadiyyatının qarşısının alınması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşması istiqamətində ciddi addımlar atılıb.

"Vergi qanunvericiliyin daim təkmilləşdirilməsi ilə yanaşı, təlim təsis proseslərinin diqqətdə saxlanılması vasitəsilə vergi xidməti əməkdaşlarının bilik və bacarıqlarının artırılması Dövlət Vergi Xidmətinin daha səmərəli fəaliyyət göstərməsinə təsir göstərib" - deyə Şahin Bağırov qeyd edib.

# Məmurların daha bir yeyinti yeri...

## Bahalı xidməti avtomobillərlə iş bitmirmiş, istifadəsiz avtomobillərin təmirinə, yanacağına, ehtiyat hissələrinin alınmasına da böyük pullar xərclənirmiş! - İlginc təfərrüatlar...

***Bu yaxınlarda Nəsimi Rayon Məhkəməsində Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun təsərrüfat şöbəsinin keçmiş müdiri Şamil Şahbazovun həmin müəssisənin direktoru Rüstəm Talışinskiyə qarşı iddiası üzrə keçirilən prosesdə maraqlı faktlar üzə çıxmışdı. Məlum olmuşdu ki, adı çəkilən institut 2022-ci ilin dekabrında Qaz-3110 "Volqa" markalı avtomobilin təmiri üçün tender elan edib. Tenderin nəticələrinə əsasən, növbəti ildə "Volqa" avtomobili əsaslı təmir edilib. Təmir İnstituta 9 min manata başa gəlib (Bakupost.az).***

Maraqlısı isə odur ki, təmirinə 9 min manat xərclənən avtomobil 2025-ci ildə əmlak.gov portalında dəyərindən demək olar ki, 3 dəfə ucuz qiymətə - 3600 manata satışa çıxarılıb.

yerli istehsal avtomobillərinin alınması tələbi qoyulmuşdu. Sanki ictimai nəzarət və monitorinqlər zəiflədiyindən əvvəlki tendensiya davam edir və bir maşının o strukturda çalışan raq müəyyən dövlət qurumları üçün alınan avtomobillərin qiymətləri gündəmə gəlir. Lakin belə iddialar var ki, məsələ sadəcə qiymətlərlə bağlı deyil. Eyni zamanda yanacaq və təmir xərcləri ilə bağlı qeyri-şəffaflıq da düşündürücü məqamlardan biridir. Elə Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu ilə bağlı yazının əvvəlində təqdim etdiyimiz məlumat da bu cür şübhələrin əsassız olmadığına dair qənaətləri qüvvətləndirir.

Xatırladaq ki, sözügedən məhkəmə prosesində Şamil Şahbazov tenderin formal xarakter daşıdığını, həmin maşına 1 manat da olsun, pul qoyulmadığını iddia edib. Onun sözlərinə görə, "Volqa"ya ayrılan yanacaq İnstitutda digər rəhbər vəzifəli şəxslərin maşınlarına vurulub. "Volqa"dan sadəcə benzin silmək üçün istifadə olunub.

O da qeyd olunur ki, həmin avtomobil məhz bütün bu əməliyyatların izini itirmək üçün satışa çıxarılıb.

Beləliklə, aydın olur ki, köhnə "Volqa"dan həm təmir, həm də yanacaq pullarının mənimsənilməsi üçün istifadə olunub.

Onu da qeyd edək ki, Şamil Şahbazovun İnstitutun direktoru Rüstəm Talışinskiyə qarşı iddiası qanunsuz olaraq işdən azad olması ilə bağlı idi. İnstitutla bağlı bir sıra qanunazidd faktlar təqdim edən Ş.Şahbazov hazırkı direktor R.Talışinski və keçmiş direktor, hazırda adı saxta sertifikasiya məsələləri ilə gündəmdə olan Səhiyyə nazirinin müavini İlqar Qasımovun korrupsiya ilə məşğul olduqlarını iddia edirdi. Prosesin sonunda Ş.Şahbazovun işdən qanunsuz azad olunduğu sübut edildi və məhkəmə onun işinə bərpa olunması barədə qərar çıxardı.



Əslində bir çox dövlət qurumlarında avtomobillərin alınmasına və təmirinə ayrılan xərclərlə bağlı müəmmalı məqamların olduğu zaman-zaman gündəmə gəlir.

Hələ bir neçə il öncə deputat Zahid Oruc yerli mətbuata açıqlamasında demişdi ki, bir müddət əvvəl xidməti avtomobillərlə bağlı nəzarət gücləndə, sonradan səngiyib: "Xatırlayırsınızsa, bir müddət əvvəl dövlət qurumlarına daha çox şəxslər üçün xidmət müddəti, onun amartizasiya xərcləri, digər tariflərin şəffaflığına heç kəs əmin ola bilmir. Bilirsiniz, cansız texnika dil açıb deyə bilmir ki, hansı şöbə müdiri, hansı nazir müavini özünün arsenalında nə qədər maşın saxlayıb, onun məsrəfləri nədən ibarət olub. Ona görə də bu məsələ ilə bağlı birdəfəlik çözüm tapılmalıdır. Hesab edirəm ki, parlament qarşıdakı dövrdə hökumətlə birgə nəqliyyat vasitələrilə bağlı məsələyə tam olaraq aydınlıq gətirməlidir. Ölkə rəhbərinin qərarı verilib. Qeyd olunan avtomobillərin bir hissəsi dövlət əmlakının idarəedilməsi üzrə müvafiq komitə tərəfindən hərraclara çıxarılaraq satılacaq. Əldə edilən vəsait büdcəyə yönəldiləcək. Məsələ onun miqdarında, ölçüsündə, çəkisində deyil. Ümumilikdə bu prosesi şəffaflaşdırmaq lazımdır".

Onu da deyək ki, cəmiyyətdə və mediada bir qayda olaraq müəyyən dövlət qurumları üçün alınan avtomobillərin qiymətləri gündəmə gəlir.

Araşdırmalarımız zamanı keçmiş illərdə istər Hesablama Palatasının apardığı auditlər, istərsə də Dövlət Maliyyə Nəzarəti Xidmətinin ayrı-ayrı dövlət qurumlarında keçirdiyi yoxlamalar zamanı avtomobillərə aylıq yürüş həddindən artıq qət edilmiş məsafəyə görə yanacaq silindiyinə, yararsız vəziyyətdə olan nəqliyyat vasitəsinə icbari sığorta üçün, habelə onun istismarı adı ilə yanacaq və ehtiyat hissələrinin alınmasına vəsait xərcləndiyinə dair qanunsuzluqlar aşkarlanıb. Hətta sözügedən audit və yoxlamalardan aydınlaşan odur ki, illər uzunu istismara yararsız vəziyyətdə olan avtonəqliyyat vasitəsinə həmin dövrdə yanacaq, bir neçə halda isə təsdiqedici sənəd olmadan benzin, yaxud dizel yanacağının uçotdan silindiyi hallar az qala bir çox nazirliklər üçün adi hala çevrilib.

***Sənan Mirzə***

06_27 IYUI-QARA.qxd 2/13/2025 5:50 PM Page 10



# Eks-deputatın holdinqi çöküşdə

## Sabiqlərin izi ilə: Mahir Aslanovun biznes imperiyası, doğrudanmı, zəifləyib?

***“Unikal” qəzeti keçmiş məmurların və deputatların hazırda harada olduqları, nə iş gördükləri haqqında araşdırmalardan ibarət “Sabiqlərin izi ilə” layihəsini davam etdirir. Bu silsilədən növbəti yazımız Milli Məclisin sabiq üzvü Mahir Aslanov barədədir.***

Ötən ilin noyabrında 75 yaşını qeyd edən Aslanov vaxtilə 96 saylı Goranboy-Naftalan seçki dairəsindən parlamentə mandat qazanıb. Deputat olduğu illərdə susqunluğu ilə bilinən Mahir Aslanovun ən məşhur çıxışı tütün məmulatlarının reklamına qarşı olmuşdu. Həmin çıxışı məşhurlaşdıran isə onun özünün əslində 60 ildən çoxdur siqaretdən istifadə etməsinin aydınlaşması idi. Sitat: ““Siqaretin reklamı qəti qadağan olunmalıdır. Xarici ölkələrdə siqaret çəkən və çəkməyən insanların ağ ciyərlərinin şəklini də qutunun üstünə vururlar. Adam o şəkilə , ciyərə baxanda siqaretin qutusunu belə açmaq istəmir... Mən özüm 53 il siqaret çəkmişəm. Siqaret məni o dərəcədə cana yığdı ki, o vərdişdən uzaqlaşdım”.



Aslanov parlament üzvü olduğu dönəmdə adı daha çox biznes işləri ilə gündəmə gəlib. Onu adı tikinti, mebel, logistika, sanatoriya, klub-restoran biznesində hallanıb.

Məsələn, 2015-ci ildə mətbuatda yayımlanmış bir məqalədə deyilir: ” Deputatın özündə bir çox sahəni birləşdirən nəhəng biznes şəbəkəsinə sahib olduğunu vurğulayan məlumatlı şəxsin sözlərinə görə, Mahir Aslanova məxsus olan ”Kəpəz Group” tikintidən tutmuş, mebel satışına qədər bir çox fərqli sahəni əhatə edir: ”Bu şirkət 1992-ci ildə fəaliyyətə başlayıb. ”Kəpəz Group” tikinti, mebel (istehsalı və daşınması), daşımaçılıq, restoran (klub), mehmanxana biznesi, həmçinin, təmir və dizaynlaşdırma sahələrində fəaliyyət göstərir. Şirkət hazırda Almaniya, Türkiyə, Birləşmiş Ərəb Əmirliyi, Gürcüstan, Rusiya və Rumıniya ilə güclü əlaqələr qurub. Bundan başqa, Mahir Aslanovun onlarla iri yük daşımaçılığı ilə məşğul olan TIR-ları var.

Keçmiş İnqilab (indiki Həsən Əliyev) küçəsində yerləşmiş ”Kəpəz Mebel Evi”, ”Kəpəz” hotel və ”Happy İnn” hotellər şəbəkəsinin də ona məxsus olduğu deyilir. Eyni zamanda, millət vəkilinin paytaxtın müxtəlif ərazilərində bir neçə hündürmərtəbəli binası var”.

Eks-deputat o vaxt bu iddiaları səssizliklə qraşılamış və heç bir münasibət bildirməmişdi. Lakin onun Naftalanda sanatoriya tikdirdiyi barədə xəbərlər yayılınca Aslanov həm bunu, həm də ümumilikdə biznes faəliyyətini inkar etmək yolunu tutdu. O, hər hansı sanatoriya tikdirmədiyini, adında heç bir istirahət mərkəzi, hər hansı şirkət olmadğını bildirdi. Lakin çox keçmədən rəsmi sənədlərlə aydınlaşdı ki, keçmiş deputat 2018-ci il may ayının 16-da Naftalanın Şirvan prospekti, 4 C ünvanında ümumi sahəsi 10 min kvadrat metrdən artıq 7 mərtəbəli müalicə-sağlamlıq mərkəzinin tikintisi üçün öz adına icazə alıb. Üstəlik, Naftalanda deputatın daha bir müalicə sağlamlıq mərkəzi də var - “Kəpəz” sanatoriyası. Həmin sanatoriyanı Mahir müəllimin 2000-ci illərin ikinci yarısında əldə etdiyi deyilir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən əldə olunan digər bir sənədə görə Mahir Aslanov öz adına 2017-ci il iyulun 18-də Xətai rayonu, Nobel prospekti, 9 ünvanında 7 mərtəbəli, mansardı olan ofis binasının tikintisinə icazə alıb.

Amma deputat orada ofis yox, hotel tikdirib. “Hazırda həmin ünvanda Mahir Aslanovun ümumi sahəsi 2249.1 kv.m. olan “Nobel” hoteli fəaliyyət göstərir” - yerli KİV yazırdı.

Sabiq deputat konkret faktlar ortaya qoyulunca yenidən susmaq yolunu seçdi.

Yeri gəlmişkən, Mahir müəllimin Rumıniyada, paytaxt Buxarestdə 17 ildən bəri fəaliyyət göstərən “NİCO KAPAZ SRL” şirkətinin sahibi olduğuna dair də xəbərlər var. Və həmin xəbərlər nə təsdiq, nə də təkzib edilib.

Bəzi iddialara görə, son vaxtlar sabiq deputatın biznes imperiyası xeyli zəifləyib. Onun bir sıra obyektlərinin əl dəyişdiyi də deyilir. Bu sırada müxtəlif hotellər göstərilir. Hətta Naftalandakı “Kəpəz” hotelinin də bu qəbildən olduğu deyilir.

Hələ 1992-ci ildə fəaliyyətə başlayan “Kəpəz Group” holdinq üçün də işlərin qaydasında getmədiyinə dair iddialar var. Xüsusilə də şirkətlər qrupunun tikinti sahəsinin tamamən iflic vəziyyətinə düşdüyü vurğulanır.

Keçmiş deputatın özünə gəlincə, o hazırda Bakıda yaşayır, ilin bir hissəsini (xüsusilə yaz-yay aylarını) Naftalanda keçirir. Bir neçə il öncə iki damarı tutulduğu üçün ürək əməliyyatı olan deputatın məhz bundan sonra şəxsi biznesi ilə əvvəlki qaydada maraqlana bilmədiyi qeyd edilir. Elə onun biznes imperiyasındakı zəifləmə də müəyyən qədər bununla izah olunur.

***Toğrul Əliyev***

# Yeni vergi strategiyamız hazırlanıb

***Dövlət Vergi Xidmətinin 2025-2028-ci illəri əhatə edən strategiyası hazırlanıb.***

”Unikal” xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli bu gün keçirilən “Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya” adlı Forumda deyib.

O bildirib ki, bu strategiya bizim yaxın gələcəkdə misiyamızı, dəyərlərimizi müəyyən edir.

”Dövlət Vergi Xidməti innovativ xidmətlərlə könüllü əməletməni sadə və əlçatan edən etibarlı tərəfdaş olmağı hədəfləyir” - deyə Orxan Nəzərli əlavə edib.

# Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına sədrlik edəcək

***Azərbaycan 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) sədrlik edəcək.***

“Unikal” ”Report”a istinadən məlumat verir ki, sədrlik 2026-cı ildə Azərbaycanda keçiriləcək İƏT-in 16-cı İslam Sammiti çərçivəsində ötürüləcək.

Xatırladaq ki, 2024-cü il mayın 4-də Qambiya Respublikasında İslam Əməkdaşlıq Təşkilatının 15-ci İslam Sammitində 2026-cı ildə İƏT-in 16-cı İslam Sammitinin Azərbaycanda keçirilməsi təsdiqlənib.

# "Saxta reseptləri rəngli printerdə hazırlayırdıq" - Cinayət işi

***Nizami rayonunda psixotrop tərkibli dərmanların əldə olunması üçün saxta reseptlər hazırlayan 3 nəfərdən ibarət dəstə üzvünün növbəti məhkəməsi keçirilib.***

”Unikal”ın məlumatına görə, hakim Aytən Əliyeva iclasda sənədlərin tədqiqinə keçib. Məlum olub ki, hər üç təqsirləndirilən şəxsdən psixotrop dərmanlar aşkar edilib. Müşfiq Şahbazovdan isə tərəzidə aşkar edilib. Həmçinin 2 nəfər hal şahidinin məcburi qayda da məhkəməyə gətirilməsi barədə qərar çıxarılıb. Məhkəmənin növbəti iclası 17 fevral tarixinə kimi təxirə salınıb.

Qeyd edək ki, təqsirləndirilən şəxslərdən 2-si həbsdə, Əzizə Əliyeva barəsində isə ”polis nəzarəti altına vermə” qətimkan tədbiri seçilib.

İttiham aktına görə, Nizami rayon Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan Bakı şəhər sakinləri 1999-cu il təvəllüdlü Qulu Salmanov, 1986-cı il təvəllüdlü Əli Balayev, 1986-cı il təvəllüdlü Müşviq Şahbazov və 1987-ci il təvəllüdlü Əzizə Əliyeva tutulublar.

Təqsirləndirilən şəxs Müşfiq Şahbazovun sözlərinə görə, reseptləri rəngli printerdə Əzizə hazırlayıb: ”Mən kimsə dərman istəyəndə resept verirdim, dərman yox. Reseptə kimin adını istəsəm yazırdım”.

Onlardan ümumilikdə psixotrop tərkibli 950 ədəd, o cümlədən 350 ədəd pregabalin, 600 ədəd tramadol həbləri və külli miqdarda metamfetamin aşkar edilib.

Qeyd edək ki, Ə.Əliyeva evində hazırladığı saxta reseptləri dəstə üzvlərinə təqdim edərək psixotrop maddələrdən tərkibli dərmanların əldə olunaraq qanunsuz dövriyyəsinin təşkilinə şərait yaradıb.

***Seymur Əli***

# Azərbaycanda bu peyvənd pulsuz vurulacaq

***Uşaqlıq boynu xərçənginə qarşı vurulan HPV peyvəndi yaxın gələcəkdə Azərbaycanda da pulsuz olacaq.***

“Unikal” xəbər verir ki, bunu APA-ya müsahibəsində Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Dr. Hande Harmancı deyib. “Səhiyyə Nazirliyinin HPV vaksininin profilaktik peyvəndlər təqviminə daxil edilməsi istiqamətində işlər aparması ilə bağlı məmnuniyyətliyik. Biz Səhiyyə Nazirliyinin bu təşəbbüsünü bütün imkanlarımızla dəstəkləyirik. Çünki HPV peyvəndi qadınları uşaqlıq boynu xərçəngindən qorumaq üçün təhlükəsiz və effektiv yoldur”, - o bildirib.

Hande Harmancı qeyd edib ki, Səhiyyə Nazirliyi və ÜST bu vaksinin peyvənd təqviminə salınmasında maraqlıdır.

Qeyd edək ki, uşaqlıq boynu xərçənginə səbəb olan insan papilloma virusuna qarşı 2006-cı ildən bəri tətbiq olunan HPV peyvəndi artıq ÜST-nin Avropa regionundakı ölkələrin mütləq əksəriyyətində profilaktik peyvəndlər təqviminə daxil edilib. Peyvənd təqviminə daxil edilmiş vaksinlər isə dövlət tərəfindən pulsuz təşkil edilir.

06_27 IYUI-QARA.qxd 2/13/2025 9:28 PM Page 11



# 2024-ci ilin Yevlax rayonu üzrə "Kənd təsərrüfatı ilə bağlı ümumi məlumat"



***2024-cü ilin məhsulu üçün 5558,6 hektar sahədə payızlıq buğda, 6501,4 hektar sahədə isə arpa səpini aparılmışdır. Əvvəlki illə müqayisədə 3049,1 hektar buğda və 385,7 hektar arpa səpini az aparılmışdır.***

2024-cü ildə 343,0 hektar qarğıdalı, 995,0 hektar günəbaxan, 122,0 hektar çəltik, 150,0 hektar kartof, 576,5 hektar tərəvəz, 230,0 hektar bostan, 16630,0 hektar çoxillik yem bitkiləri, 5,0 hektar noxud, 30,0 hektar darı, 2455,1 hektar pambıq, 45,0 hektar lobya, 341,9 hektar şəkər çuğunduru olmaqla yazlıq bitkiləri əkilmişdir.

2023-cü ilə nisbətən 3,7 hektar qarğıdalı, 485,0 hektar günəbaxan, 7,7 hektar kartof, 10,2 hektar tərəvəz, 5,0 hektar bostan, 30,0 hektar çoxillik yem bitkiləri, 2,0 hektar darı, 1,7 hektar lobya, 87 hektar çəltik, 2,0 hektar noxud, 566,8 hektar pambıq çox əkilmiş, şəkər çuğunduru isə 44,9 hektar az olmuşdur.

01 yanvar 2025-ci ilin məhsulu üçün əkin sahələrindən 20791,0 ton buğda, 19698,0 ton arpa, 1656,0 ton kartof, 6606,6 ton tərəvəz, 3032,6 ton bostan, 12425,0 ton meyvə, 347,5 ton giləmeyvə, 255960,1 ton yonca otu, 329,6 ton darı, 12,5 ton noxud, 164,4 ton lobya istehsal olunmuşdur ki, bu da 2023-cü ilin yanvar-dekabr aylarına nisbətən 70,1 ton bostan, 87,8 ton kartof, 284,1 ton yonca otu, 363,8 ton meyvə, 0,6 ton giləmeyvə, 135,9 ton tərəvəz, 26,0 ton darı, 5,4 ton noxud, lobya isə 51,4 ton çox tədarük olunmuşdur. 11229,7 ton buğda, 963,4 ton arpa az tədarük olunmuşdur.

2024-cü ildə barama tədarükü 5634,35 kq olmuşdur ki, bu da 2023-cü ilə nisbətən 41,6 faiz və ya 4015,65 kq az tədarük olmuşdur.

2023-cü ildə barama tədarükü 9650,0 kq omuşdur.

Cari ilin yanvar ayının 1-i vəziyyətinə ət istehsalı (diri çəkidə) 9422,1 ton, süd istehsalı 38335,4 ton, yumurta istehsalı 19317 min ədəd, yun isə 361,4 ton olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 113,6 ton, süd istehsalı 142,5 ton, yumurta istehsalı 1084 min ədəd, yun isə 3,8 ton artmışdır. Rayonda 79331 baş iri buynuzlu mal-qara, o cümlədən 33235 baş inək və camışlar, 185211 baş qoyun və keçilər, 457444 baş quş olmuşdur.

***Hazırladı,***
***Yevlax Şəhər Statistika İdarəsinin rəisi***
***Saleh Cəfərov***

# Siyəzən rayonunda muzdla çalışan işçilərin sayı haqqında

***Siyəzən Rayonunda məşğul əhalinin tərkib hissəsi olan muzdla çalışan işçilərin sayı 2024-cü ilin yanvar-noyabr aylarında 6539 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 3531 nəfər (54,0 faiz), qeyri-dövlət sektorunda isə 3008 nəfər (46,0 faiz) təşkil etmişdir.***




Muzdla çalışan işçilərin 52,5 faizi xidmət sahələrində, 47,5 faizi isə məhsul istehsalı sahələrində məşğul olmuşdur.

Məhsul istehsalı sahələrində çalışanların 61,7 faizini kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 29,7 faizini sənaye (o cümlədən 16,7 faizi mədənçıxarma, 4,9 faizi emal, 4,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 4,1 faizini su təchizatı, tullantıların təmizlənməsi və emalı), 8,6 faizini tikinti sahələrində işləyənlər təşkil etmişdir.

Xidmət sahələrində çalışanların 48,4 faizi təhsil, 17,9 faizi səhiyyə və sosial xidmətlərin göstərilməsi, 14,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,4 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 2,8 faizi peşə, elmi və texniki fəaliyyət, 1,1 faizi maliyyə və sığorta, 1,6 faizi informasiya və rabitə, 0,8 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,0 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində olmuşdur.

***Kamil Xəlilov,***
***Siyəzən Rayon Statistika İdarəsinin rəisi***

# Keçmiş komitə sədri qardaşının şirkətini ortada qoymaq istəmir

## İbrahimovların ən məşhur şirkətlərindən biri borc bataqlığında çapalayır - İflas edəcəkmi?

***Hazırda həbsdə olan Tağı İbrahimovun tikinti şirkətinin dövlətə vergi borcu yaranıb.***

Bildirilir ki, "Nehrəm" Mənzil-Tikinti Kooperativinin (MTK) İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 10070.4 AZN borcu var.

Məlumata görə, Tağı İbrahimovun həbsindən sonra təsisçisi olduğu şirkətdə bütün işlər dayandırılıb. Xeyli sayda işçinin maaşları belə verilmir.

Qeyd edək ki, "Nehrəm" MTK-nın qanuni təmsilçisi hələ də 2020-ci ildə vəfat etmiş İbrahimov Həmid Kazım oğludur. O, Tağı İbrahimovun yaxın qohumu olub.

Onu da əlavə edək ki, ötən ilin yanvar ayında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən partlayış və yanğının baş verdiyi "Bakı Ağac Emalı" ASC-nin də qanuni təmsilçisi Həmid İbrahimov olsa da, təsisçisi Tağı İbrahimovdur. Məhz bu səbəbdən elə həmin vaxt baş verən partlayışa görə "Bakı Ağac Emalı" ASC-nin sahibi Tağı İbrahimov və ASC-ni faktiki olaraq idarə edən Toğrul Rzayev həbs ediliblər.

Tağı İbrahimov ilkin olaraq Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda), Toğrul Rzayev isə həmin Məcəllənin 225.3-cü (yanğın təhlükəsizliyi qaydalarını pozma, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb ediliblər.

Ötən ilin dekabrındakı məhkəmə iclasında Tağı İbrahimovun vəkili vəsatət verərək bildirmişdi ki, müdafiə etdiyi şəxs özünü təqsirli bilmir. Buna baxmayaraq, o, ittiham olunduğu iş üzrə 400 min manat vergi borcunu ödəyib. O, eyni zamanda zərərçəkmişlərin və hüquqi varislərin bir qisminə maddi təzminat ödəyərək barışıq əldə edib. Vəkil, onun digərlərinə də yardım edə bilməsi üçün Tağı İbrahimovun haqqında seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı qətimkan tədbiri ilə əvəzlənilməsini istəyib. Lakin məhkəmə vəsatəti təmin etməyib.

Onu da deyək ki, məlum yanğın faciəsinin ardınca yayılan məlumatlarda Tağı İbrahimovun rəhbərlik etdiyi "Bakı Ağac Emalı" ASC-nin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 195.354,58 manat vergi borcu olduğuna dair xəbərlər yayılmışdı.

"Onun (T.İbrahimovun -



red.) banklara da kifayət qədər borcu yaranıb. Əldə etdiyimiz məlumata görə, sözügedən zavod Azərbaycan Beynəlxalq Bankının (ABB) girovluğunda olub" - həmin vaxt yerli KİV yazırdı.

Vurğulamaq yerinə düşər ki, Tağı İbrahimov Diasporla İş üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovun və iş adamı Hacı İbrahim Nehrəmlinin qardaşıdır.

Sabiq komitə sədri ilə həbsdəki qardaşı arasında soyuqluq olduğu deyilir. Buna səbəb kimi T.İbrahimovun çətin vəziyyətdə ondan hər hansı dəstək görmədiyi göstərilir.

Bəzi iddialara görə isə bu, məqsədli şəkildə ortaya atılmış söz-söhbətdən başqa bir şey deyil. Belə ki, son illərdə İbrahimov qardaşlarının biznes işləri qaydasında getmir. Odur ki, başları qalmaqallardan açılmır. Elə T.İbrahimovu həbsə aparıb çıxaran da həmin qalmaqallar silsiləsinin bir parçasıdır. Deyilənə görə, bu durumda İbrahimov qardaşları öz aralarında soyuqluq və inciklik görüntüsü yaratmaqla bir-birlərini sığortalamağa çalışırlar. Yəni birinin biznesinə təhlükə ortaya çıxdıqda digərlərinin biznesinin də risk altına düşməsini istəmirlər.

O ki qaldı iflas həddinə çatan "Nehrəm" MTK ətrafında yaranmış vəziyyətə, deyilənə görə, İbrahimov qardaşlarına məxsus şirkətlər arasında xüsusi çəkisi olan bu şirkətə Nazim İbrahimov bir müddət əvvəl sahib çıxmaq istəyib. O, yaxın adamları vasitəsilə MTK-nın fəaliyyətini gücləndirmək niyyətində imiş. Lakin özünün də biznes işləri qaydasında olmayan İbrahimov sonradan həmin fikirdən əl çəkməli olub. Xüsusilə adı çəkilən MTK-nın hədsiz dərəcədə böyük məbləğlərlə ifadə olunan borcları sabiq komitə sədrini çətin vəziyyətdə qoyub.

Onu da deyək ki, "Nehrəm" MTK-nın adı iki ay öncə cərimə məsələsi ilə gündəmə gəlmişdi. Həmin vaxt bildirilirdi ki, şirkət barəsində inzibati protokol yazılıb.

O da vurğulanırdı ki, protokol Fövqəladə Hallar Nazirliyi tərəfindən İnzibati Xətalar Məcəlləsinin 518.1-ci (Mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda, ictimai yerlərdə, anbarlarda, yataqxanalarda və ya digər yaşayış sahələrində, meşələrdə və nəqliyyatda yanğın təhlükəsizliyi standartlarının, normalarının və qaydalarının tələblərinin pozulmasına və ya yerinə yetirilməməsinə görə fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar iyirmi manatdan otuz manatadək məbləğdə cərimə edilir, vəzifəli şəxslər xəbərdarlıq edilir və ya onlar yüz manatdan yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə cərimə edilir) maddəsinə əsasən tərtib edilib.

***Toğrul Əliyev***

# Samuxda 2024-cü ildə istehlak və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksi 103,5 faiz olub

***2024-cü ildə istehlak qiymətləri indeksi 2023-cü ilə nisbətən 103,5 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məhsulları üzrə 103,1 faiz, qeyri qida məhsulları üzrə 105,0 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 102,9 faiz təşkil etmişdir.***

2024-cü ilin dekabr ayında istehlak qiymətləri və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksi əvvəlki aya nisbətən 101,1 faiz təşkil etmişdir.

Ötən il qida məhsullarında bahalaşma uzun və yumuru düyüdə, kərə yağında, şirniyyatda, qoyun ətində, mal ətində, toyuq ətində, meyvə və tərəvəzlərdə, qara çayda, uşaq qidası üçün quru tozda və s. məhsullarda, qeyri qida məhsullarında bahalaşma sabunda, yuyucu tozlarda, saç üçün şampunlarda, saç üçün boyalarda, sementdə, sulu boyalarda, elektrik mallarında, tikinti materiallarında, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə isə mebel təmirində, avtomobilin yuyulmasında, soyuducu təmirində cüzi qiymət artımı müşahidə olunmuşdur.

***Samux Rayon Statistika İdarəsi***

06_27 IYUl-QARA.qxd 2/13/2025 5:50 PM Page 12



## 5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda sahibkarlığın inkişafına böyük dövlət dəstəyi var

***Güzəştli kreditlə təmin edilən sahibkarlıq subyektlərinin sayı ötən illə müqayisədə 74,7% artaraq 5722-yə çatıb.***

Ölkədə sahibkarlığın stimullaşdırılması məqsədilə biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşdırılır. Azərbaycanda investisiya cəlbediciliyinin və özəl sektorun ümumi daxili məhsuldakı payının yüksəldilməsi dövlətin prioritet istiqamətlərindəndir. Son illər ərzində Azərbaycanda sahibkarlıq fəaliyyətinə mane olan bürokratik əngəllərin aradan qaldırılması məqsədilə həyata keçirilən əsassız yoxlamaların qadağan edilməsi özəl sektorun inkişafına göstərilən ən böyük dəstəklərdəndir. Ölkəmizdə özəl sektorun inkişafını dəstəkləyən ən mühüm tədbirlərdən biri də, sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün dövlətin maliyyə dəstəyinin olmasıdır.

İqtisadiyyat Nazirliyindən sorğumuza verilən cavaba görə, 2024-cü ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlə təmin edilən sahibkarlıq subyektlərinin sayı 2023-cü illə müqayisədə 74,7% artaraq 5722-yə çatıb. Verilmiş kredit məbləği isə 28% artaraq 248,1 milyon manat təşkil edib. Fondun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə 2024-cü il üzrə sənaye, kənd təsərrüfatı, logistika, anbar komplekslərinin yaradılması, turizm, balıqçılıq və akvakultura, yaşıl layihələr, kütləvi informasiya vasitələrinin inkişafı, tibb, təhsil və xidmət layihələri prioritet istiqamətlər kimi müəyyənləşdirilib. Fond tərəfindən verilmiş ümumi güzəştli kredit məbləğinin 53,3%-i kənd təsərrüfatı məhsullarının istehsalı, 38,1%-i sənaye məhsullarının istehsalı, 6,1%-i xidmət, 2,1%-i turizm və 0,4%-i isə balıqçılıq və akvakultura sahələrinə yönəldilib.

Nazirlikdən bildirilib ki, Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dayanıqlığının və inkişafının təmin edilməsi üçün onların güzəştli maliyyə resurslarına çıxışı təmin edilib. Belə ki, 2024-cü ildə Fond tərəfindən maliyyələşdirilən layihələrin 99,8%-i, ayrılan güzəştli kredit məbləğinin isə 93,4%-i məhz mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşüb.

Regionlarda sahibkarlıq subyektlərinin dəstəklənməsi yenə də prioritet təşkil edib. Regionlarda sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması üçün sahibkarlara güzəştli kreditlər ayrılıb. Ötən il Fond tərəfindən güzəştli kredit ilə təmin edilən layihələrin 94,7%-i, verilən güzəştli kredit məbləğinin isə 72%-i regionların payına düşüb.



İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq subyektlərinin dəstəklənməsi əsas hədəflərdəndir. Ötən il də işğaldan azad edilmiş ərazilərdə iqtisadi aktivliyin bərpa olunması və bu ərazilərdə investisiya qoyuluşlarının sürətlənməsinə dəstək diqqət mərkəzində saxlanılıb. Belə ki, fevral ayından etibarən "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" mexanizmi çərçivəsində bu ərazilərdə investisiya layihəsi həyata keçirən sahibkarların bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlərin 90%-dək hissəsinə dövlət zəmanətinin verilməsinə başlanılıb. Bununla yanaşı, həmin kreditlərin illik faiz dərəcəsinin 10% bəndi 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır və kreditin müddətinin yarısından çox olmamaqla, 36 aya qədər güzəşt müddəti tətbiq edilir. 2024-cü ildə bu ərazilərdə sahibkarların zəmanət-subsidiya mexanizminə müraciətləri əsasında 12 layihə üzrə 23,4 milyon manat kreditə 19,2 milyon manat dövlət zəmanəti verilib. Həmçinin bu kreditlər üzrə 6,2 milyon manat həcmində subsidiyanın verilməsi təsdiqlənib. Fond tərəfindən bu mexanizmlə maliyyələşdirilən layihələr sənaye, xidmət, turizm və kənd təsərrüfatı sahələrini əhatə edib. Sözügedən layihələr Şuşa, Xankəndi, Ağdam, Cəbrayıl və Xocalıda icra olunaraq töhfə verirlər. Bununla yanaşı, sözügedən mexanizmə müraciətlərin operativ qəbul edilməsi məqsədilə "Elektron kredit və zəmanət" informasiya sistemi sahibkarların istifadəsinə verilib. Sahibkarlar heç bir kredit təşkilatına getmədən elektron informasiya sistemi vasitəsilə müraciətlərini ünvanlamaq imkanına sahibdirlər.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində zəmanət-subsidiya mexanizmi ilə yanaşı güzəştli kredit mexanizminə də dəstək tədbirləri davam etdirilib. Ötən il ərzində bu ərazilərdə icra olunan 3 layihə üzrə Fonddan ümumilikdə 8,1 milyon manat güzəştli kredit əldə edilib.

Sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi məqsədilə görülən işlər bununla yekunlaşmır.

Belə ki,sənaye, o cümlədən kənd təsərrüfatı məhsullarının emalı sahələrində fəaliyyət göstərən, eləcə də yaşıl layihələr həyata keçirən sahibkarların fəaliyyətinin genişləndirilməsi məqsədilə Fondla əməkdaşlıq edən müvəkkil kredit təşkilatlarının nümayəndələri arasında "Sənaye və yaşıl layihələrə dəstək" müsabiqəsi keçirilib. Müsabiqə çərçivəsində 2024-cü ildə Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 311 layihəyə 66 milyon manata yaxın kredit verilib.

Dövlət tərəfindən sahibkarlar üçün əlverişli investisiya mühitinin formalaşdırılması əsas hədəflərdən olduğu üçün dövlət müəyyən güzəştlər tətbiq edir.

Bu siyahıya sənaye parklarının rezidentlərinin 10 il müddətinə əmlak, torpaq, mənfəət vergisi, eləcə də istehsal məqsədilə idxal olunan texnika, texnoloji avadanlıq və qurğulara görə ƏDV-dən və gömrük rüsumlarından azad olunmasını əlavə etmək olar. Həmçinin işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün əlavə güzəştlər də tətbiq olunur. Belə ki, həmin ərazilərin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən, ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan rezidentləri isə siyahısı təsdiq edilmiş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalına görə ƏDV-dən azad ediliblər. Bu ərazilərdə vergi uçotuna alınan və fəaliyyət göstərən vergi ödəyicilərinə istehsal, o cümlədən emal və hasilat fəaliyyəti sahəsi üzrə vergi azadolması tətbiq edilir. Vergi uçotuna alınan və mallarını işğaldan azad edilmiş ərazinin rezidentlərinə təqdim edən hüquqi və fiziki şəxslər topdansatış, ticarət, tikinti və xidmət sahələri üzrə vergidən azaddırlar. Vergi azadolması həm də turizm, pərakəndə ticarət, ictimai iaşə və digər əhaliyə xidmət sahələri üzrə bu bölgədə vergi uçotuna alınan və həmin ərazilərdə fəaliyyət göstərən vergi ödəyicilərinə şamil edilir. Fiziki şəxs olan istehlakçılar tərəfindən işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə görə nağdsız qaydada ödənilən ƏDV-nin 30 faizi, nağd qaydada isə 5 faizi geri qaytarılır. Dövlətin sahibkarlara tətbiq etdiyi bütün bu güzəştlər isə Azərbaycanda sahibkarlığın inkişafına böyük töhvə verir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# TKT imtahanına qeydiyyat elan edildi

***Dövlət İmtahan Mərkəzi (DİM) TKT (Teaching Knowledge Test) imtahanına qeydiyyat elan edir.***

DİM-dən "Unikal"a bildirilib ki, imtahan aprelin 19-da keçiriləcək. Qeydiyyat martın 5-dək davam edəcək.

Kembric Universiteti Nəşriyyat və Qiymətləndirmə qurumunun rəsmi test mərkəzi olan Dövlət İmtahan Mərkəzi ingilis dili müəllimləri üçün bilik və bacarıqları beynəlxalq səviyyədə təsdiq edən TKT (Teaching Knowledge Test) kvalifikasiyasının aşağıdakı modulları üzrə imtahan təşkil edir:

TKT Modul 1

TKT Modul 2

TKT Modul 3

TKT Modul YL (Young Learners - azyaşlı öyrənənlərə dilin tədrisi)

TKT Modul CLIL (Content and Language Integrated Learning - dilin məzmunla inteqrativ tədrisi)

Qeyd edək ki, DİM Kembric Universiteti Nəşriyyat və Qiymətləndirmə qurumunun rəsmi test mərkəzlərindən biri olaraq Kembric İngilis dili üzrə Qiymətləndirmə (Cambridge English Qualifications), Kembric İngilis dili üzrə Tədris (Cambridge English Teaching) imtahanlarını təklif edir. Dövlət İmtahan Mərkəzi tələb əsasında Kembric İngilis dili üzrə Səviyyə Testi (Cambridge English Placement Test - CEPT) də təşkil edir.

İmtahana link vasitəsilə qeydiyyatdan keçmək mümkündür.

# Heydər Əliyev Fondu nazirliklə birgə olimpiada keçirəcək

***Heydər Əliyev Fondu və Elm və Təhsil Nazirliyinin birgə layihəsi çərçivəsində ümumi təhsil müəssisələrinin şagirdləri arasında "Zəkaların mübarizəsi" olimpiadası keçiriləcək.***




Bu barədə Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, olimpiadada iştirak edən IX-XI sinif şagirdləri riyaziyyat, rəqəmsal texnologiyalar, təbiət və humanitar elmlər, mədəniyyət və incəsənət sahələrində bilik və bacarıqlarını nümayiş etdirəcək, eyni zamanda şagirdlər arasında şahmat turniri təşkil ediləcək.

Komanda yarışı formatında keçiriləcək olimpiada regional və respublika mərhələlərindən ibarətdir. Cari ilin aprelində keçirilməsi planlaşdırılan regional mərhələnin nəticələri əsasında qaliblərin müəyyən olunması üçün may ayında olimpiadanın final mərhələsi təşkil ediləcək.

Olimpiadanın keçirilməsində əsas məqsəd müxtəlif sahələrdə bilik və bacarığı ilə seçilən istedadlı gəncləri aşkar etmək, şagirdlərdə əməkdaşlıq, effektiv ünsiyyət, liderlik keyfiyyətləri, müzakirə mədəniyyəti, qərar vermə, komanda ilə işləmə, analitik və məntiqi düşünmə, planlaşdırma və strategiya qurma bacarıqlarını inkişaf etdirmək, onlar arasında sağlam rəqabət mühitini formalaşdırmaq və region gəncləri arasında ünsiyyət mühitini genişləndirməkdir.

# 2024-cü ildə Goranboy rayonunda Ümumi Məhsul Buraxılışı

***2024-cü il əvvəlki illə müqayisədə Ümumi Məhsul Buraxılışı (ÜMB) 14,1 faiz artaraq 572550,9 min manat olmuşdur. ÜMB-nın 78,8 faizi məhsul istehsalı sahələrində, o cümlədən 6,8 faizi sənayedə, 30,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 41,6 faizi isə tikinti sahəsində yaradılmışdır.***

ÜMB-nın 21,2 faizi xidmət sahələrində, o cümlədən 0,8 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 0,5 faizi informasiya və rabitə sahəsində, 19,9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində olmuşdur.

***Cədvəl 1***

*İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı, sabit qiymətlərlə, əvvəlki ilin müvafiq dövrünə nisbətən faizlə*

| | 2024-cü ildə | 2023-cü ildə |
|---|---|---|
| Sənaye | 101,1 | 101,5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 99,4 | 108,5 |
| Tikinti | 139,9 | 79,9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 127,1 | 92,5 |
| İnformasiya və rabitə | 151,4 | 116,9 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 100,4 | 101,1 |
| **Yekun** | **114,1** | **94,1** |

***Cədvəl 2***

*İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı, min manat*

| | 2024-cü ildə | 2023-cü ildə |
|---|---|---|
| Sənaye | 38806,8 | 37555,9 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 174116,9 | 167669,8 |
| Tikinti | 238293,3 | 170366,3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 4515,7 | 3595,8 |
| İnformasiya və rabitə | 2674,9 | 1761,1 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 114143,3 | 112080,5 |
| **Yekun** | **572550,9** | **493029,4** |

***Qrafik 1***

*2024-cü ildə ümumi məhsul buraxılışının strukturu, faizlə*




***GORANBOY RAYON STATİSTİKA İDARƏSİ***

# Qusarda kənd təsərrüfatının inkişaf etdirilməsi diqqət mərkəzindədir

***2024-cü ildə rayonda əhali və kənd təsərrüfatı müəssisələri tərəfindən mövcud olan məhsulu yığılacaq 27291,1 hektar əkin sahəsinin 23123 hektarını payızlıq və yazlıq dənli bitkilərin əkin sahəsi təşkil edir.***

Ondan 15580 hektarı buğda, 7541 hektarı arpa, 2 hektarı isə vələmir sahələridir. Bundan əlavə 331 hektar qarğıdalı, ondan (242 hektarı yem, 89 hektarı dən üçün), 203 hektar lobya, 4 hektar noxud, 2077 hektar kartof və 1608 hektar tərəvəz bitkisi əkilmişdir. Rayonda 2024-cü ildə 39262,0 ton buğda, 17360,0 ton arpa, 4,8 ton vələmir, 315,0 ton qarğıdalı, 279,3 ton lobya, 4,8 ton noxud, 31370,0 ton kartof, 27264,6 ton tərəvəz, 72465,7 ton meyvə və 223,5 ton üzüm məhsulları tədarük edilmişdir. Keçən ilə nisbətən ümumi məhsul və hər hektardan orta məhsuldarlıq yüksək olmuşdur.

Cari ilin məhsulu üçün keçən ilin payızında 20330 hektar sahədə şum qaldırılmış və 19710 hektar sahədə səpin aparılmışdır, ondan 10650 hektar buğda, 9060 hektarı arpa təşkil edir.

***Qusar Rayon Statistika idarəsinin aparıcı məsləhətçisi Ə.Balakişiyev***

# "Biz uşaqları yox, valideynləri tərbiyə etməliyik" - Ekspert

***"Məktəbin giriş qapısının ağzında avtomobil saxlayan valideyn övladına qayğı göstərən biri deyil, cəmiyyətə hörmətsizlik edən, pis nümunə olan biridir".***

"Unikal" xəbər verir ki, bunu təhsil eksperti Kamran Əsədov deyib. O bildirib ki, məktəblərin qarşısında, xüsusən də şagirdlərin hərəkət etdiyi ərazilərdə dayanma və durma qadağan olunmalıdır:

"Kamera quraşdırılıb, qaydanı pozanlara cərimə tətbiq edilməlidir. 100 metr kənarda maşını saxlayıb, piyada övladını məktəbə aparmaq istəmirsiniz. Yolun ortasında maşını atıb məktəbə daxil olan valideynin hərəkəti yüzlərlə insana mane olur. Məktəb ölkədə ən təhlükəsiz yerlərdən biridir.




Uşağını məktəbə buraxmaq üçün edilən bu tərbiyəsizlik digərlərinə narahatlıq yaradır. Biz uşaqları yox, valideynləri tərbiyə etməliyik".

# 2024-cü ildə Balakənin iqtisadi və sosial inkişafının göstəriciləri

***Məhsul istehsalı 2023-cü illə müqayisədə 2024-cü ildə ilkin hesablamalara görə 1,3 faiz azalaraq 318383,0 min manat təşkil edib. Məhsul istehsalının 22,6 faizi sənaye, 0,7 faizi tikinti, 40,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,0 faizi informasiya və rabitə, 32,2 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilib.***

2024-cü ildə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 71833,3 min manat olmuşdur. Qeyri-dövlət sektorunda istehsalın və xidmətlərin həcmi 60802,1 min manat və sənaye məhsulunun ümumi həcmində xüsusi çəkisi 84,6 faiz olmuşdur. Dövlət bölməsində isə sənaye məhsulu istehsalının həcmi 11031,2 min manat olmaqla sənaye məhsulunun ümumi həcminin 15,4 faizini təşkil etmişdir.

İstehsal edilmiş sənaye məhsulunun və göstərilmiş xidmətlərin 84,6 faizi emal sənayesinin, 13,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,3 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrinin payına düşür.

2024-cü ildə yüklənmiş malların həcmi 74449,1 min manat olmuş, o cümlədən öz istehsalı olan malların həcmi 71874,9 min manat təşkil etmişdir. Bununla yanaşı 2025-ci il yanvarın 1-i vəziyyətinə sənaye müəssisələrin anbarlarında öz istehsalı olan hazır məhsul qalığı 124,5 min manat olmuşdur.




Kənd təsərrüfatı bitkilərinin yığımı başa çatmışdır. 2024-cü ildə qarğıdalı da daxil olmaqla tarlalardan 51847,9 ton və ya 2023-cü illə müqayisədə 11,9 faiz az dənli və dənli paxlalı bitkilər, 26629,0 ton (18,6 faiz az) tərəvəz, 38968,2 ton (8,7 faiz çox) meyvə və giləmeyvə, 6655,0 ton (3,3 faiz çox) kartof, 4228,0 ton (1,2 faiz çox) bostan məhsulları, 328,0 ton (1,2 faiz çox) üzüm, 33,0 ton (56,0 faiz az) günəbaxan, 107,2 ton (35,3 faiz az) tütün yığılmışdır.

2024-cü ildə diri çəkidə 4328,9 ton ət, 22373,3 ton süd, 10775,0 min ədəd yumurta və 76,0 ton yun istehsal edilmişdir. 2023-cü illə müqayisədə ət istehsalı 23,7 ton və 0,6 faiz, süd istehsalı 61,3 ton və ya 0,3 faiz, yumurta istehsalı 74,0 min ədəd və ya 0,7 faiz artmış, yun istehsalı isə eyni olmuşdur.

İlkin məlumatlara görə 2025-ci il yanvarın 1-i vəziyyətinə rayon üzrə 36772 baş qoyun və keçi, 27286 baş iribuynuzlu malqara, o cümlədən 13217 baş inək və camış mövcud olmuşdur.

2024-cü ildə bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 15301,8 min manat məbləğində olmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2024-cü ildə 745,0 min ton yük və 7522,0 min nəfər sərnişin daşınmış, 2023-cü illə müqayisədə yük daşınması 5,4 faiz, sərnişin daşınması isə 7,9 faiz artmışdır.

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehlakçılara 3359,8 min manatlıq və ya 2023-cü illə müqayisədə 2,5 dəfə çox xidmət göstərilmişdir.

2024-cü ildə pərakəndə ticarət şəbəkəsindən əhaliyə 320151,5 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 64581,9 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2023-cü illə müqayisədə əmtəə dövriyyəsi 0,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 8,1 faiz artmış, ticarət şəbəkəsində 212260,1 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 108891,4 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2024-cü ilin yanvar-noyabr aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 7,3 faiz artaraq 564,2 manat təşkil etmişdir.

Rayon əhalisinin sayı ötən ilin əvvəlindən 344 nəfər və ya 0,3 faiz artaraq 2025-ci il yanvar ayının 1-i vəziyyətinə ilkin hesablamalara görə 101033 nəfərə çatmışdır.

***Balakən Rayon Statistika İdarəsinin rəisi Fərhad Xəlilov***

# Cinayətdə şübhəli bilinən 68 nəfər saxlanıldı



***Fevralın 12-də ölkə ərazisində qeydə alınan 63, əvvəlki dövrlərdən bağlı qalan 7 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 138, o cümlədən borclu şəxs qismində axtarışda olan 106 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 40, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 27 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 68 nəfər saxlanılıb.

# Azərbaycanda tələbə faciəli şəkildə ölüb

***Azərbaycan Dövlət Dəniz Akademiyasının 4-cü kurs tələbəsi vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə "Dənizçilərə Sosial Dəstək" İctimai Birliyinin sosial şəbəkə hesabında məlumat paylaşılıb.

Bildirilib ki, Elvin Salmanov Kəlbəcər rayonunda qayadan yıxılaraq dünyasını dəyişib.

06_27 IYUl-QARA.qxd 2/13/2025 5:50 PM Page 14



# Təbrizin Vətən sevgisi...



***Torpağa, yurda bağlılıq, Vətənə sevgi Cəlilabadın Böyük Bəcravan kəndində dünyaya göz açan Təbriz İsabala oğlu İsayevin qanına ana südü ilə birgə hopmuşdu. Odur ki, 44 günlük haqq savaşımızda sinəsini ona sipər etməklə adını yeni, şanlı tariximizə qəhrəman kimi yazdı. Ömür yolu 27 il oldu Təbrizin.***

Qısa müddətdə Vətən, xalq qarşısında xüsusi xidmətləri oldu. Odlardan-alovlardan keçərək 30 il düşmənə əsir düşən müqəddəs, ulu yurd yerimiz Qarabağın bağrına zəfər bayrağı sancanların önündə getdi. Bu çətin, şərəfli yolda canını fəda etməklə Vətənə ilahi sevgini qanı ilə möhürlədi. Fədakarlıq, mərdlik, qürur, heyrət doğuran bir məktəb olaraq bizlər üçün örnək qoydu. İndi hər dəfə Təbrizin adı çəkiləndə o məktəbdən Vətən, xalq naminə ürəklərə eşq odu, məhəbbət alovu axır.

El-obada son dərəcə mərd, ağıllı, köksündə əsl qəhrəman ürəyi döyünən gənc kimi tanınan Təbriz İsayev ordu sıralarına Qarabağımızı işğal altında saxlayan erməni dığalardan qisas almaq məqsədilə yola düşüb. Cəbhə bölgəsində xidmət edib, əsgərlik borcunu ləyaqətlə yerinə yetirdiyinə görə hamının sevimlisinə çevrilib. Hərbi təlimlərə böyük həvəslə qatılan və bütün sınaqlardan uğurla keçən Təbriz vətənpərvərlikdə əsgər yoldaşlarına hər zaman nümunə göstərilib.

Təbriz əsgərliyini üzüağ başa vurduqdan sonra evə qayıdıb.

Erməni qaniçənlərin Qarabağımızın işğalını heç cür vicdanına sığışdıra bilməyən gənci Vətən, torpaq sevgisi yenidən hərbiyə qaytarıb. Xüsusi Təyinatlı Qüvvələrində gizir rütbəsində xidmətə başlayıb və məqamı gələndə düşmənlə sona qədər vuruşub qisas alacağına and içib. Bu işdə çalışması 6 il çəkib. Düşməni döyüş meydanında əzməklə qoynunda dünyaya gəldiyi torpağın qürurunu bütün millətlərə göstərmək üçün hərbi sahədə mükəmməl bilik qazanıb və düşmənlə haqq savaşına getməyə hər an hazır durub.

2016-cı ilin Aprel döyüşlərində iştirak edən qəhrəman gizir neçə-neçə erməni faşistin axırına çıxıb, Lələ-təpəyə zəfər bayrağımızı sancan igidlərdən olub. 2020-ci il İkinci Qarabağ döyüşçüləri başlayan gündən ön cəbhədə düşmənlə üzbəüz vuruşub. Yağı gülləsini vecinə almadan Füzulidə, Cəbrayılda dığaların kabusuna çevrilib Təbriz. Dəfələrlə ölümlə pəncələşib, amma qəlbindəki Vətən məhəbbəti hər şeyə qaib gəlib. Döyüşlərin birində ağır yaralanıb. Müalicəsini yarımçıq qoyaraq yenidən saf, məğrur vicdanı onu Qarabağın azadlığı uğrunda vuruşa aparıb. 10 oktyabr 2020-ci ildə ağır müharibə meydanında düşmənin snayperdən açdığı atəş nəticəsində ürəyindən aldığı güllə yarasından şəhidlik zirvəsinə ucalib.

Doğma kəndində sevdalandığı Vətən adı sevgilisinin sinəsinə yeni bir dünya yaşamaq üçün əbədi baş qoyan qəhrəman şəhidimiz "Azərbaycan Bayrağı" ordeninə, " Şücaətə görə ", "Vətən uğrunda" , Xocavəndin, Cəbrayılın və Kəlbəcərin azadlığına görə medallara layiq olub.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# 2024-cü ildə Ağdaş rayonunun makroiqtisadi göstəriciləri belə olub




***2024-cü ilin yanvar-dekabr aylarında rayonda iqtisadiyyatın əsas sahələri üzrə 519 milyon 511,8 min manatlıq məhsul və xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 8,8 faiz və ya 42 milyon 105,5 min manat çox, müqayisəli qiymətlərlə isə 4,0 faiz və ya 19 milyon 51,7 min manat çoxdur.***

Müqayisə olunan dövrə nisbətən ümumi məhsul buraxılışı müqayisəli qiymətlərlə tikinti-quraşdırma işləri sahəsində 3,4 dəfə və ya 29 milyon 175,1 min manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 8,0 faiz və ya 578,6 min manat, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 0,5 faiz və ya 1 milyon 137,6 min manat artmış, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 2,4 faiz və ya 3 milyon 525,7 min manat, sənaye məhsulu istehsalı sahəsində 9,3 faiz və ya 8 milyon 54,4 min manat, informasiya və rabitə sahəsində isə 35,3 faiz və ya 259,5 min manat azalmışdır.

Ümumi məhsul buraxılışının 46,0 faizi kənd təsərrüfatı, 28,0 faizi ticarət xidməti və nəqliyyat vasitələrinin təmiri, 16,5 faizi sənaye, 7,9 faizi tikinti, 1,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,1 faizi isə informasiya və rabitə xidmətləri sahəsində yaranmışdır.

Məhsul və xidmətlərin 70,4 faizi istehsal sahələrinin, 29,6 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Bu işçilər iş yerini özü seçəcək - Evə daha yaxın

***Tibb müəssisələrində iş yerini evə yaxınlaşdıran yeni layihənin icrasına başlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) məlumat yayıb.

Bildirilib ki, işçilərin məmnunluq səviyyəsinin artırılmasına və iş effektivliyinin yüksəldilməsinə hədəflənən "Evimə yaxın iş" layihəsi çərçivəsində Bakı Baş Səhiyyə Mərkəzinin strukturuna daxil olan tibb müəssisələrində (Bakı şəhəri üzrə ilkin səhiyyə xidməti göstərən tibb müəssisələri) çalışan tibb və qeyri-tibb işçilərinin faktiki yaşayış ünvanlarına daha yaxın ərazilərdə olan tibb müəssisələrinə iş yerinin dəyişdirilməsi imkanı verilir.

Layihənin ilkin mərhələsində Bakı şəhəri üzrə ilkin səhiyyə xidməti göstərən bütün tabeli tibb müəssisələrinə işçilərin qeydiyyatdan keçmələri üçün onlayn anket forması təqdim olunub. Həmin anket formalarına öz məlumatlarını və istəklərini daxil etməklə əməkdaşlar qeydiyyatdan keçə bilər. Növbəti mərhələdə müraciətlər TƏBİB tərəfindən dəyərləndirilir və əldə olunan nəticəyə dair Bakı Baş Səhiyyə Mərkəzinə müvafiq məlumatlar təqdim edilir.

# Qusarda turizmin vəziyyəti haqqında statistika

***Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur. Hazırda turizm qlobal miqyasda sürətlə inkişaf edən biznes sahələrindəndir. Turizm Azərbaycanın regionlarının iqtisadi inkişafının prioritet istiqamətlərindən biri kimi qəbul edilmişdir. Böyük turizm potensialına malik olan Qusar rayonunda "Şahdağ Qış-Yay Turizm Kompleksi" fəaliyyət göstərir və burada respublika, beynəlxalq əhəmiyyətli idman tədbirləri keçirilir.***




Cari ilin yanvar ayının 13-də Azərbaycan Qış İdman Növləri Federasiyasının və "Şahdağ" Turizm Mərkəzinin təşkilatçılığı ilə dünyanın 26 ölkəsindən gələn 130-a yaxın idmançının iştirakı ilə xizək alpinizmi üzrə Dünya Kuboku uğrunda yarışlar keçirilmişdir.

Qusar rayonunda 01.01.2025-cü il tarixinə 20 mehmanxana (hotel) və mehmanxana tipli obyektlər fəaliyyət göstərmişdir. Bu mehmanxanalarda nömrələrin sayı 940, yerlərin sayı isə 2169-dur. 2024-cü ildə həmin obyektlərdə 92383 şəxs yerləşdirilmişdir ki, onlardan 38660-ı Azərbaycan, 53723-ü isə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdir. 2024-cü ildə 2023-cü illə müqayisədə obyektlərdə yerləşdirilmiş şəxslərin sayı 48,9 faiz artmışdır. Gecələmələrin sayı 2024-cü ildə 191556, 2023-cü ildə isə 134082 olmuşdur. 2024-cü ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərdə məhsulun (xidmətin) satışından 44106,9 min manat gəlir əldə edilmişdir. Məhsulun (xidmətlərin) satışından əldə edilmiş gəlir 2023-cü ilə nisbətən 74,6 faiz artmışdır. Məhsulun (xidmətin) istehsalına çəkilən xərclər 41476,7 min manat olmuşdur.

Turizm sektorunda bütün göstəricilər üzrə artan dinamika müşahidə olunur. Ölkəmizdə o cümlədən Qusar rayonunda turizmin inkişafı əlavə iş yerlərinin açılması, xidmət, ticarət, iaşə və iqtisadiyyatın digər sahələrinin inkişafına təkan verir ki, bu da öz növbəsində xalqımızın rifah halının yüksəlməsinə xidmət edir.

***Qusar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi***
***Vahid Hacıbabayev***

# Ağdaşda heyvandarlıq məhsulları istehsalı artır

***2024-cü ilin yanvar-dekabr aylarında Ağdaş rayonunda kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə-kəndli və ev təsərrüfatlarında faktiki qiymətlərlə 238 milyon 757,5 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 58,6 faizi heyvandarlığın payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə heyvandarlıq məhsullarının istehsalı müqayisəli qiymətlərlə 1,3 faiz artmışdır.***

2025-ci il yanvar ayının 1-i vəziyyətinə rayonun təsərrüfatlarında 67319,0 baş iri buynuzlu mal-qara, o cümlədən 29982 baş inək və camış, 72964 baş qoyun və keçi mövcud olmuşdur.

2024-cü ilin yanvar-dekabr ayları ərzində 12053,8 ton diri çəkidə ət, 59824,0 ton süd, 25182 min ədəd yumurta istehsal olunmuşdur. 2023-cü ilin eyni dövrünə nisbətən ət istehsalı 0,1 faiz artmış, süd istehsalı 3,3 faiz azalmışdır.

***Ağdaş Rayon Statistika İdarəsi***

06_27 IYUl-QARA.qxd 2/13/2025 5:50 PM Page 15



# ABŞ-də hərbi təyyarə qəzaya uğrayıb



***"E/A-18G Growler" hərbi təyyarəsi Kaliforniyanın San-Dieqo körfəzində ABŞ Hərbi Dəniz Qüvvələrinin Hava Stansiyasının yaxınlığında qəzaya uğrayıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Fox News" telekanalı məlumat dərc edib.

"Hərbi təyyarə San-Dieqo körfəzində Şimal Adası Dəniz Hava Stansiyası yaxınlığında qəzaya uğrayıb", - məlumatda deyilir.

Hadisə nəticəsində iki pilot yaralanıb, onlar xəstəxanaya yerləşdirilib. Qəza yerinə 60 yanğınsöndürən və bir helikopter göndərilib.

# "Ukraynanın müdafiəsi Avropaya 3 trilyon dollara başa gələ bilər"



***Kiyevi müdafiə etmək və silahlı qüvvələrini genişləndirmək Avropanın böyük ölkələrinə 3,1 trilyon dollara başa gələ bilər,***

"Unikal" xəbər verir ki, bu barədə "Bloomberg" agentliyi məlumat yayıb. Nəşr vurğulayır ki, bu, əgər Aİ münaqişənin həllinin əsas hissəsini öz üzərinə götürsə baş verə bilər.

"Ukraynanı müdafiə etmək və öz silahlı qüvvələrini genişləndirmək qitənin ən böyük dövlətlərinə növbəti on il ərzində əlavə 3,1 trilyon dollara başa gələ bilər", - məqalə müəllifləri vurğulayırlar.

Onların məlumatlarına görə, yaxın on ildə Avropa İttifaqı Ukrayna ordusunun bərpasına təxminən 175 milyard dollar, Ukraynada 40 minlik sülhməramlı qüvvələrə mümkün dəstəyə təxminən 230 milyard dollar xərcləməli olacaq.

*Gülayə Mecid*

# Rusiya səfiri Moldova XİN-ə çağırıldı

***Moldova Xarici İşlər Nazirliyi Rusiyanın Kişinyovdakı səfirini ölkənin cənubunda iki pilotsuz təyyarənin qəzaya uğraması ilə bağlı XİN-ə çağırıb.***



"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV məlumat yayıb.

"Xarici İşlər Nazirliyi Rusiya Federasiyasının Kişinyovdakı səfirini rəsmi izahatların verilməsi və bu qəbuledilməz hərəkətlərə qarşı kəskin etirazının bildirilməsi xahişi ilə təcili olaraq çağırmaq qərarına gəlib", - Moldova XİN-in bəyanatında deyilir.

*Ağarza Elçinoğlu*

# "Rusiyanı diz çökdürmək son dərəcə təhlükəlidir" - Medvedev



***"Rusiyanı diz çökdürmək mümkün deyil".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev "Telegram" kanalında yazıb.

O, Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Donald Tramp arasında telefon danışığını şərh edib:

"Bu, prinsipcə son dərəcə təhlükəlidir, çünki bizi diz çökdürmək mümkün deyil. Və rəqiblərimiz bunu nə qədər tez başa düşsələr, bir o qədər yaxşıdır".

*Gülayə Mecid*

# "Putin və Tramp Zəngəzur dəhlizinin taleyini həll edəcəklər" - Erməni politoloq

***Putin və Tramp çox güman ki, Zəngəzur dəhlizinin taleyini həll edəcəklər.***



"Unikal" xəbər verir ki, bu barədə erməni politoloq Artur Xaçikyan açıqlayıb. Onun sözlərinə görə, Qafqazın taleyi müzakirə olunacaq: "Türkiyə və Azərbaycan öz nüfuzundan Ermənistana təzyiq etmək və Zəngəzur dəhlizini əldə etmək üçün istifadə edirlər.

Ermənistan danışıqlar masasına qurban, heç kimin maraq göstərmədiyi kiçik, müdafiəsiz üçüncü dərəcəli etnik qrup rolunda çıxacaq. Taleyinin asılı olacağı ölkələrin isə Ermənistanda heç bir strateji marağı olmayacaq. Ermənistan həm Rusiya, həm də ABŞ ilə siyasətini tamamilə iflasa uğratdı. Ermənistanın isə özünü müdafiə rıçaqları olmayacaq.

Ermənistan hökuməti ABŞ-də apardığı siyasətdə uğursuzluğa düçar oldu, Tramp administrasiyası ilə heç bir əlaqə qura bilmədi. Ermənistanın Vaşinqtonda heç bir əlaqəsi və təsir rıçaqları yoxdur ki, bu, xüsusilə bu qrupun liderinin Vaşinqtona uğursuz səfərindən sonra aydınlaşdı. Heç kim onun səfərinin fərqinə varmadı, heç kim görmədi, heç kim haqqında yazmadı, acınacaqlı qeyri-rəsmi "selfie"dən başqa heç bir nəticəsi də olmadı.

Bu rejim Rusiyaya qarşı siyasəti tamamilə alt-üst etdi, 7 il ərzində şiddətli anti-Rusiya təbliğatı apardı, Moskvadakı türkyönlü lobbiyə kömək etmək üçün hər şeyi etdi. Ermənistanın taleyi yenidən onun iştirakı olmadan həll olunacaq və o, bu anda dəhlizdə gözləyəcək.

Təbii ki, İran müzakirə olunacaq. Çox güman ki, Rusiyanın köməyi ilə sülh danışıqlarına, nüvə proqramının məhdudlaşdırılmasına, hava zərbələrindən imtinaya doğru seçim ediləcək. Rusiya bu məsələdə çəkindirici təsir göstərə bilər.

Və bizim edə biləcəyimiz yeganə şey taleyimizin necə həll olunacağını gözləməkdir. Həmişə olduğu kimi".

*Ağarza Elçinoğlu*

# Rüşvətə görə tutulan rəis həbsə deyil, müharibəyə göndərildi

***Rusiya Daxili İşlər Nazirliyinin Primorsk diyarı üzrə Dövlət Yol Hərəkəti Təhlükəsizliyi Müfəttişliyinin rüşvət almaqda təqsirləndirilən sabiq rəisi Oleq Zubakin xüsusi hərbi əməliyyatın (SMO) keçirildiyi əraziyə göndərilib.***



"Unikal" xəbər verir ki, bu barədə "Kommersant" qəzeti məlumat dərc edib.

Bildirilir ki, Zubakin Rusiya Müdafiə Nazirliyi ilə müqavilə bağlayıb və Şimali Qafqaz Hərbi Dairəsinə gedib. Bununla əlaqədar məhkəmə onun cinayət işi üzrə icraatı dayandırıb. Zubakinin dörd şərikinin məhkəməsi davam edir.

Qeyd edək ki, polis polkovniki Zubakin 10 il Primorsk diyarının Dövlət Yol Hərəkəti Təhlükəsizliyi Müfəttişliyinə rəhbərlik edib. O, mütəşəkkil dəstənin tərkibində 50 min rubldan 150 min rubla qədər rüşvət almaqda 29 maddə ilə ittiham olunub.

*Gülayə Mecid*

# "HƏMAS üç gün ərzində girovları azad etməsə..." - İsraildən müharibə mesajı

***Əgər HƏMAS razılaşdırıldığı kimi üç gün ərzində girovları azad etməsə, İsrail Qəzza zolağında döyüşləri bərpa edəcək və bu daha intensiv olacaqlar.***

"Unikal" xəbər verir ki, bu barədə İsrail mətbuatı siyasi rəhbərliyə istinadən məlumat yayıb.

Bildirilib ki, Təl-Əviv hadisələrin mümkün inkişafına hazırlaşır. Artıq ehtiyatda olan hərbçilər çağırılıb.

Yanvarın 19-da qüvvəyə minən atəşkəs razılaşmasına əsasən, HƏMAS üç girovu şənbə günü azad etməyə razılaşdı, lakin qrup artıq İsrailin razılaşmanın şərtlərini pozduğunu iddia etdiyi üçün girovların azad edilməsini dayandırdığını bildirib.

*Ağarza Elçinoğlu*



06_27 IYUl-QARA.qxd 2/13/2025 5:50 PM Page 16



# Şahmat üzrə Azərbaycan çempionatında final görüşlərinə start verilir

***Şahmat üzrə Azərbaycan çempionatında final oyunlarına start verilib.***

"Unikal"ın məlumatına görə, həlledici raundda Şəhriyar Məmmədyarovla Rauf Məmmədov üz-üzə gələcəklər.

Üçüncü yer uğrunda qarşılaşmada Teymur Rəcəbovla Misrətdin İskəndərov görüşəcəklər.



Qadınlarda isə Gövhər Beydullayeva ilə Günay Məmmədzadə finalda münasibətlərə aydınlıq gətirəcəklər. Ülviyyə Fətəliyeva ilə Gülnar Məmmədova üçüncü yer uğrunda mübarizə aparacaqlar.

Bu cütlər arasında ikinci partiyalar fevralın 14-də baş tutacaq.

Qeyd edək ki, kişilərin yarışında mükafat fondu 60 min, qadınlarda isə 30 min manat təşkil edir.

# "Mahirə ehtiyacım var" - Kloze

***Azərbaycan millisinin hücumçusu Mahir Emreli Almaniyanın "Nürnberq" klubundan ayrıla bilər.***

"Unikal" xəbər verir ki, bu barədə "Bild" nəşri məlumat yayıb. Onun karyerasını Cənubi Koreyada davam etdirəcəyi iddia olunub.

Hətta Mahirin komanda ilə məşqləri dayandırdığı da bildirilib. Xəbərdə o da qeyd olunub ki, 2-ci Bundesliqanın son turunda "Maqdeburq"la oyunda ehtiyatda qalması Emrelinin narazılığını daha da artırıb. Komandanın baş məşqçisi Miroslav Kloze isə "Maqdeburq"la oyundan sonra verdiyi açıqlamada Mahirə ehtiyacı olduğunu deyib: "Şənbə günü Mahir üçün asan olmadı. Ona görə də bu gün onunla yenidən danışdım. Onunla daim əlaqə saxlayıram. Amma bu oyunçuya ehtiyacım var və mən bunu ona dəfələrlə demişəm. Mahir bəzən qərarların onun əleyhinə deyil, başqası üçün verildiyini başa düşməlidir. 50 beynəlxalq oyun keçirib. Ona görə ehtiyatda qalmasının onu narahat etməməsi yanlış reaksiya olardı".

Qeyd edek ki, ötən ilin yayından "Nürnberq"də çıxış edən Mahir



Emreli bu mövsüm ümumilikdə 15 oyuna 4 qol vurub, 1 qol ötürməsi edib.

# Liverpul derbisində dava düşdü

***İngiltərə Premyer Liqasının 15-ci turunun təxirə salınmış Liverpul derbisində - "Everton" - "Liverpul" matçında (2:2) dava düşüb.***

"Unikal" xəbər verir ki, 90+8-ci dəqiqədə meydan sahibi komandanın kapitanı Ceyms Tarkovski komandasının ikinci qolunu vuraraq yekun nəticəni müəyyənləşdirib. Bundan sonra onun komanda yoldaşı Abdulay Dukure "Liverpul" azarkeşlərinin yer aldığı sektorun qarşısında qolu qeyd etməyə başlayıb. Bu isə "qırmızılar"ın oyunçu-



ları, xüsusən də yarımmüdafiəçi Kertis Consu qıcıqlandırıb.

Nəticədə bəzi futbolçular arasında dava baş verib. Hadisədən sonra Abdulay Dukure, eləcə də hakimlə münahisə etdiyi üçün "Liverpul"un baş məşqçisi Arne Slot qırmızı vərəqə alıb.

"Liverpul"un futbolçusu Vircil van Deyk jurnalistlərə bildirib ki, bu hadisə bir futbolçunun (Abdulay Dukure) təxribatı nəticəsində baş verib. "Biz isə bunu gördük və bir komanda olaraq reaksiya verdik" - deyə o bildirib.

Qeyd edək ki, hadisə səbəbindən "Liverpul"un baş məşqçisi Arne Slotun keçirməli olduğu mətbuat konfransı ləğv olunub.

# Salah Premyer Liqada daha bir rekorda imza atıb

***"Liverpul"un hücumçusu Məhəmməd Salah İngiltərə Premyer Liqasının təxirə salınmış 15-ci turu çərçivəsində "Everton"la səfər matçında qol və məhsuldar ötürmə ilə yadda qalaraq turnirin 31 illik statistik nailiyyətini yeniləyib.***

"Unikal" xəbər verir ki, bu barədə xarici media portalı məlumat yayıb. Belə ki, Salah İngiltərə Premyer Liqası tarixində bir mövsümün səfər oyunlarında "qol+ötürmə" sistemi üzrə 22 xal toplayan ilk futbolçu olub. Beləliklə, misirli futbolçunun 2024/2025 mövsümündə keçirdiyi 13 oyunda 13 qolu və doqquz məhsuldar ötürməsi var. 32 yaşlı ulduz misirli



cinah hücumçusu "Nyukasl Yunayted"in heyətində çıxış etdiyi 1993/1994 mövsümündə "Arsenal"ın keçmiş hücumçusu Endi Kolun qurduğu rekordunu (21 xal) yeniləyib. Cari mövsümdə Salah klub üçün bütün turnirlərdə 35 oyun keçirib və bu matçlarda 27 qol və 19 məhsuldar ötürmə ilə fərqlənib.

Xatırladaq ki, ötən gün "Qudison Park"dakı sonuncu Mersisayd derbisi dramatik sonla bitmişdi.



# "Fənərbaxça"nın futbolçusu rəsmən Rusiya klubunda

***"Fənərbaxça"nın futbolçusu Oqnen Mimoviç "Zenit"ə keçib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya klubunun mətbuat xidməti məlumat yayıb.

20 yaşlı sağ cinah müdafiəçisi yeni komandasına icarə əsasında çıxış edəcək. Onunla mövsümün sonuna qədər müqavilə imzalanıb.

Qeyd edək ki, Oqnen Mimoviç bu mövsüm 19 matça çıxaraq 1 qol vurub və 2 qolun ötürməsini edib. Serbiya millisinin üzvü "Fənərbaxça"ya ötən ay "Srvena Zvezda"dan transfer olunub. İstanbul klubu onun üçün 6,7 milyon avro ödəyib və 2029-cu ilin yayına qədər müqavilə imzalayıb.

# ÇL-də həftənin ən yaxşısı adına namizədlər

***Çempionlar Liqasında pley-off mərhələsinin ilk oyunlarından sonra həftənin ən yaxşı futbolçusu adına namizədlər açıqlanıb.***



Bunlar Vinisius Junior ("Real"), Vanqilis Pavlidis ("Benfika"), İqor Payxao ("Feyenoord") və Seri Qirassidir ("Borussiya" Dortmund).

Vinisius "Mançester Siti" ilə oyunda (3:2) 2 qolun ötürməsini verib. Qirassi "Sporting"lə (3:0) görüşdə 1 qol vurub və 1 məhsuldar ötürmə edib. Pavlidis "Monako" ilə matçda (1:0) qapını dəqiq nişan alıb. Paixao isə "Milan"la qarşılaşmada (1:0) qol vurub.

Qalib UEFA-nın saytındakı səsvermə nəticəsində müəyyənləşəcək.

Qeyd edək ki, Çempionlar Liqasının pley-off mərhələsinin cavab oyunları 18-19 fevralda keçiriləcək.

# Çempionlar Liqası: "Bavariya" səfərdə qələbə qazandı, "Milan" "Feyenoord"a uduzdu

***UEFA Çempionlar Liqasında pley-off mərhələsinin ilk oyunlarına yekun vurulub.***

"Unikal" xəbər verir ki, son oyun günündə 4 qarşılaşma keçirilib. "Brügge" Belçikada İtaliyanın "Atalanta" klubunu, Almaniya "Bavariya"sı isə Şotlandiyada "Seltik"i 2:1 hesabı ilə məğlub edib.

İtaliya "Milan"ı Niderlandda "Feyenoord"a, "Monako" isə Fransada Portuqaliya "Benfika"sına uduzub - 0:1.

Qeyd edək ki, pley-off mərhələsinin cavab matçları fevralın 18-19-da təşkil ediləcək.